# QARABAĞ AZƏRBAYCANDIR!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 010 (6210) 19 yanvar 2021-ci il 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## İlham Əliyev: “Bugünkü Azərbaycana investisiyalar daha böyük həcmdə gələcək”

*Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında iki zavodun təməlini qoyub, vərəqə şüşə istehsalı müəssisəsinin açılışını edib*




Bax 2



## Əli Əhmədov: “Milli şuranın” milli xəyanəti yeni hadisə deyil

Müxalifətin radikal qanadının yaratdığı “milli şuranın” Azərbaycanın milli maraqlarına tam zidd siyasi xətt tutması yeni hadisə deyildir. SİA-nın məlumatına görə, bunu Baş nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov deyib...

Bax 5

## Prezidentin köməkçisi Hikmət Hacıyev Respublika Veteranlar Təşkilatının Rəyasət Heyətinin iclasında iştirak edib




Yanvarın 16-da Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının Rəyasət Heyətinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, gündəliyə uyğun olaraq...

Bax 5

## Azərbaycanda koronavirusa qarşı vaksinasiya prosesi başlayıb

Bax 6



Yanvarın 18-də Azərbaycanda COVID-19-a qarşı vaksinasiya prosesinə səhiyyə işçilərinin peyvəndlənməsi ilə start verilib. AZƏRTAC xəbər verir ki, Bakı...

## Şad xəbər: Pensiyaların artırılması nəzərdə tutulur



Ölkədə pensiyaların ilin əvvəlində indeksləşdiriləcək artırılması nəzərdə tutulur. SİA-nın məlumatına görə, bunu 2020-ci ildə sosial sahədə aparılmış işlər və nəticələrinə dair müvafiq göstəricilərin təqdimatına həsr olunan mətbuat konfransında Əmək və əhalinin...

Bax 6

## Hadrutdan qaçan ermənilərin görüntüləri yayıldı!



Erməni saytları Azərbaycan Ordusunun Hadrutu işğaldan azad etdiyi gün çəkildiyi iddia edilən yeni video yayıblar. Azvision.az xəbər verir ki, saytlar sözügedən videonu “Mediaport” kanalına istinadən paylaşıblar. Hadisə şahidləri videonun...

Bax 7



Bax 7

## Azərbaycan tarixinin qanlı və şanlı səhifəsi

1990-cı ilin yanvarında sovet qoşunlarının Bakıda azadlıq uğrunda ayağa qalxmış silahsız adamlara qarşı törətdiyi qırğında 131 nəfər öldürülmüş, 700-dən çox adam...

### Vazgen Manukyan: Biz bütün sahələrdə məğlub olmuş dövlətik



Bax 11

### Tezliklə ciddi ekoloji böhranla üz-üzə qalacağıq?



Bax 15

### Ermənistanda etiraz dalğası böyüyür



Bax 10

# İlham Əliyev: "Bugünkü Azərbaycana investisiyalar daha böyük həcmdə gələcək"

*Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında iki zavodun təməlini qoyub, vərəqə şüşə istehsalı müəssisəsinin açılışını edib*

**Yanvarın 18-də Sumqayıt Kimya Sənaye Parkında "Azərsulfat" MMC-nin sulfat turşusu istehsalı, "Glassica" QSC-nin şüşə tara məhsullarının istehsalı zavodlarının təməli qoyulub, "Azerfloat" QSC-nin termoformasiya metodu ilə vərəqə şüşə istehsalı müəssisəsinin açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirlərdə iştirak edib.**



Sənayeləşmə və qeyri-neft sənayesinin inkişafı Prezident İlham Əliyevin iqtisadiyyatın şaxələndirilməsi siyasətinin əsas istiqamətlərindəndir. Bu baxımdan iqtisadiyyatın digər sahələri ilə yanaşı, sənayenin inkişafına xüsusi önəm verilir, mövcud təbii və iqtisadi resursların istehsala cəlb edilməsi, qabaqcıl texnologiyaların daha geniş tətbiqi istiqamətində sistemli tədbirlər həyata keçirilir.

Sənayeləşmə siyasətinə uyğun olaraq, ölkəmizdə yüzlərlə müasir sənaye müəssisəsi, yeni istehsal sahələri yaradılır, daxili tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artır, ixrac imkanları genişlənir.

Hazırkı dövrdə sənayenin yeni modellərin tətbiqi ilə inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Qlobal çağırışlarla uzlaşan sənaye parkları və məhəllələri, aqroparklar kimi mütərəqqi mexanizmlər ixracyönümlü məhsulların istehsalının genişləndirilməsinə, neft-qaz amilindən asılılığın daha da azaldılmasına, innovativ və yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənayenin inkişafına və əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasına yeni imkanlar açır.

"Azərsulfat" MMC-nin "sulfat turşusu istehsalı" layihəsi çərçivəsində tikiləcək zavodun investisiya dəyəri 6 milyon ABŞ dollarıdır. Zavodda ildə 20 min ton məhsul istehsalı nəzərdə tutulur. Bu ilin sonunda fəaliyyətə başlayacaq zavodda 30-dan çox iş yeri yaradılacaq. Dövlətimizin başçısı müəssisənin təməlini qoydu.

Bildirildi ki, təkcə son 3 ildə Azərbaycana hər il 5-10 min ton sulfat turşusu idxal edilir və bu zavodun fəaliyyətə başlaması ilə idxal yerli istehsalla əvəz olunacaq. Məhsulların növbəti mərhələlərdə Gürcüstana və Rusiyaya ixrac edilməsi də planlaşdırılır.

XXX

Sumqayıt Kimya Sənaye Parkının rezidentlərindən biri də "Glassica" Qapalı Səhmdar Cəmiyyətidir. Cəmiyyət burada şüşə tara məhsullarının (butulka) istehsalı zavodunu inşa edəcək. Müəssisənin məhsulları əsasən qida sektorunda qablaşdırmada istifadə olunacaq. İnvestisiya dəyəri 12 milyon ABŞ dolları olan müəssisədə 160 nəfər daimi işlə təmin ediləcək. Prezident İlham Əliyev zavodun təməlini qoydu.

Dövlətimizin başçısına məlumat verildi ki, Azərbaycanda daxili bazarın rəngli butulkaya olan tələbatı təqribən 45-50 milyon ədəd arasında dəyişir. Zavodda 60-90 milyon ədəd müxtəlif çeşidli rəngli şüşə tara məhsullarının istehsalı nəzərdə tutulur. Yəni, daxili bazarın tələbatı tam ödənilir, nəticədə ixrac perspektivi yaranır.



XXX

"Azərfloat" QSC-nin vərəqə şüşə istehsalı zavodu Azərbaycanda termoformalaşdırılmış şüşə hazırlanması üzrə ilk müəssisədir.

Ümumi investisiya dəyəri 100 milyon avro olan zavodda ildə 80 min ton müxtəlif çeşiddə vərəqə şüşə istehsal ediləcək. Müəssisənin layihələndirilməsi və qabaqcıl texnologiyalarla təchiz olunması Almaniyanın dünyada şüşəəritmə texnologiyaları sahəsində 135 illik təcrübəyə malik "HORN Glass Industries AG" şirkəti tərəfindən təmin edilib. Müəssisədə İtaliya, Finlandiya və Çin texnologiyalarından da istifadə olunur. Dövlətimizin başçısı zavodu işə saldı.

Məlumat verildi ki, hazırda ölkədə vərəqə şüşələrə olan tələbat tamamilə idxal məhsulları hesabına təmin edilir. Vərəqə şüşə şəffaf və ya rəngli, eyni zamanda, kiçik və böyük ölçülərdə istehsal olunur. Hazırda dünyada vərəqə şüşənin 90 faizdən çox hissəsi - yüksək keyfiyyətli rəngli və rəngsiz (şəffaf), optik baxımdan təmiz şüşə tamamilə termoformalaşdırma texnologiyası ilə istehsal edilir. Artıq Azərbaycanda da bu sahədə ən müasir texnologiya tətbiq olunur. Sonra Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verib.

**Təmizləmə prosesi gedir və gedəcək. Hər kəs bunu bilsin. Heç kim hesab etməsin ki, onun hansısa xüsusi imtiyazı var. Yaxud da ki, kimsə özünü toxunulmaz hesab etməsin**



Ardı Səh. 3

# İlham Əliyev: "Bugünkü Azərbaycana investisiyalar daha böyük həcmdə gələcək"

*Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında iki zavodun təməlini qoyub, vərəqə şüşə istehsalı müəssisəsinin açılışını edib*




Əvvəli Səh. 2

-Cənab Prezident, biz, ilk növbədə, yəqin ki, bu təməlqoymaları, eyni zamanda, istehsala başlamanı hərbi-diplomatik qələbələrimizdən sonra həm də iqtisadi sahədə uğurların davamı və Sizin prioritet kimi müəyyənləşdirdiyiniz sənayeləşmə siyasətinin növbəti təzahürü kimi qiymətləndirməliyik. Təməlini qoyduğunuz və eyni zamanda, hazırda məhsul istehsalına başlayan müəssisələrin növbəti mərhələlərdə qeyri-neft sənayesinin şaxələndirilməsi fonunda töhfəsini necə qiymətləndirirsiniz?

- Bu müəssisələrin yaradılmasının və təməlinin qoyulmasının çox böyük əhəmiyyəti var, ilk növbədə, Sumqayıt şəhərinin inkişafı üçün. Sumqayıt hazırda nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir və müasir sənaye mərkəzidir. Eyni zamanda, son illər ərzində Sumqayıtda yaradılmış bütün müəssisələr ən yüksək ekoloji standartlara cavab verir. Sumqayıt üçün bunun xüsusi əhəmiyyəti var. Çünki əvvəllər Sumqayıt ekoloji fəlakət zonası idi. Biz isə Sumqayıtı müasir sənaye mərkəzinə çevirərək, ilk növbədə, insanların sağlamlığını nəzərə almışıq. Bildiyiniz kimi sovet vaxtında burada tikilmiş çoxsaylı müəssisələr istismar müddətini başa vurmuşdu, sıradan çıxmışdı və ekoloji vəziyyətə çox mənfi təsir göstərirdi. O müəssisələr söküldü və mənim göstərişimlə 10 il bundan əvvəl onların ərazisində 500 hektar sahəni əhatə edən Sumqayıt Kimya Sənaye Parkı yaradılmışdır. Son illər ərzində bu sənaye parkı o qədər böyüdü və genişləndi ki, artıq göstəriş verildi, əlavə torpaq sahələri tapılsın və bu istiqamətdə işlər aparılır.

Bu müəssisənin təməlini 2017-ci ildə mən özüm şəxsən qoymuşam və şadam ki, artıq 100 milyon avro dəyərində bu böyük layihə həyata keçdi və bizi vərəqə şüşələrin idxalından azad edəcək. Bu, o deməkdir ki, valyuta qalacaq ölkəmizdə, yerli istehsal canlanacaq, iş yeri yaradılacaq və iqtisadiyyatımızın şaxələndirilməsi təmin ediləcək. Biz hətta dünya bazarlarında neftin qiymətinin aşağı səviyyədə olduğu bir dövrdə də öz dayanıqlılığımızı qoruya bilmişik. Mən bu yaxınlarda ilin yekunları ilə bağlı keçirdiyim müşavirədə qeyd etdim ki, bizim valyuta ehtiyatlarımız azalmayıb, hətta az da olsa, artıb. Nəyə görə? Çünki qeyri-neft sektoru uğurla inkişaf edib. Bütün dünya ölkələrində 2020-ci il iqtisadi tənəzzül ili olmuşdur, bizdə də, həmçinin. Amma bizdə tənəzzül cəmi 4,3 faiz olmuşdur. İnkişaf etmiş bəzi ölkələrdə bu, daha böyük rəqəmlərlə ölçülür. Amma bizdə qeyri-neft sənaye sahəsində artım 12,5 faiz olub, məhz bu kimi müəssisələrin hesabına. Sənaye, kənd təsərrüfatı, qeyri-neft sektoru, ixrac imkanları, idxaldan asılılığın azaldılması - bütün bu amillər bugünkü yeni reallığı yaradıb.

Beləliklə, ölkəmizin uzunmüddətli dayanıqlı inkişafı təmin ediləcək. İlin əvvəlində məhz buraya gəlməyim təsadüfi deyil. Yəni, 2021-ci il də artıq qələbələrlə başlayır. Əlbəttə ki, mənim bölgələrə ilk səfərim, hamımız üçün doğma Şuşa şəhərinə olub. Bu da mətbuatda kifayət qədər işıqlandırılıb. İkinci səfərim isə Sumqayıtdır. Son 17 il ərzində mən Sumqayıtda bəlkə də 30 dəfə olmuşam. Hər dəfə burada olanda, həm sənaye müəssisələrinin işə düşməsi, eyni zamanda, şəhərsalma ilə bağlı görülən işlər, insanları narahat edən problemlərin həlli daim diqqət mərkəzində olur. Bu gün Sumqayıt həm memarlıq, həm də ekoloji baxımdan gözəl şəhərdir, havası təmizdir, gözəl bulvarı var və iş yerləri də yaradılır. Bax, bu 3 müəssisədə 350-dən çox iş yeri yaradılıb və burada işləyənlərin əksəriyyəti yerli sakinlər olacaq.

Ardı Səh. 4

**"Bu gün Sumqayıt həm memarlıq, həm də ekoloji baxımdan gözəl şəhərdir, havası təmizdir, gözəl bulvarı var və iş yerləri də yaradılır. Bax, bu 3 müəssisədə 350-dən çox iş yeri yaradılıb və burada işləyənlərin əksəriyyəti yerli sakinlər olacaq"**







# İlham Əliyev: "Bugünkü Azərbaycana investisiyalar daha böyük həcmdə gələcək"

*Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında iki zavodun təməlini qoyub, vərəqə şüşə istehsalı müəssisəsinin açılışını edib*

Əvvəli Səh. 2

Biz bu müəssisələri yaratmaqla həm bu günün məsələlərini həll edirik, həm də gələcək məsələləri. Nə üçün Azərbaycanda bizə lazım olan bütün istehsalat sahələri yaradılmasın? Sadəcə olaraq, həm xarici, həm də yerli investorların ölkəmizin gələcəyinə inamı olmalıdır, bu da həmişə olub, bu gün də var. Gözəl investisiya iqlimi olmalıdır. Dünya Bankının "Doing Business" hesabatında biz 10 ən islahatçı ölkə sırasındayıq və dünya miqyasında 28-ci yerdəyik. Sabitlik olmalıdır, xalq-iqtidar birliyi olmalıdır, əmin-amanlıq olmalıdır, təhlükəsizlik olmalıdır və buna da biz nail olmuşuq. Artıq müharibə də başa çatıb, Dağlıq Qarabağ münaqişəsi də tarixdə qalıb. Ona görə mən tam əminəm ki, bugünkü Azərbaycana investisiyalar, ilk növbədə, qeyri-neft sektoruna daha böyük həcmdə gələcəkdir. Çünki əgər əvvəlki illərdə - müharibə hələ həll olunmamış bir vəziyyətdə biz bu investisiyaları cəlb edə bilmişiksə, bu gün bunları cəlb etmək daha asan olacaq.

Bir də ki, ölkəmizdə islahatlar - kadr islahatları, struktur islahatları, iqtisadi islahatlar, sosial sahədə islahatlar aparılır. Bu gün dünyada Azərbaycan kimi inkişaf üçün bir çox amilləri özündə ehtiva edən ölkələrin sayı azdır. Siyasi sabitlik, xalq-iqtidar birliyi, əmin-amanlıq, coğrafi yerləşmə, infrastruktur, hazırlıqlı peşəkar kadrlar, - bu, çox önəmlidir, - ixrac bazarları, qonşu ölkələrlə yaxşı işgüzar münasibətlər, heç bir ölkə ilə problemin olmaması. İndi mən ümid edirəm, müəyyən müddətdən sonra Ermənistan da deyəcək ki, onların da bizimlə heç bir problemi yoxdur. Çünki əsas məsələ bunda idi, onlar bizim torpağımızı işğal etmişdilər. Onlar bizə qarşı soyqırımı törədiblər. Onlar bizim şəhərlərimizi yerlə bir ediblər. Biz, sadəcə olaraq, özümüzü müdafiə etmişik, lazımi səviyyədə müdafiə etmişik və işğalçıları torpaqlardan qovmuşuq.



**Bu gün dünyada Azərbaycan kimi inkişaf üçün bir çox amilləri özündə ehtiva edən ölkələrin sayı azdır. Siyasi sabitlik, xalq-iqtidar birliyi, əmin-amanlıq, coğrafi yerləşmə, infrastruktur, hazırlıqlı peşəkar kadrlar, - bu, çox önəmlidir, - ixrac bazarları, qonşu ölkələrlə yaxşı işgüzar münasibətlər, heç bir ölkə ilə problemin olmaması**






Ona görə ölkəmizin inkişafı üçün yeni bir dövr başlayıb. Bütün bu amillər ola-ola bu gün biz azad edilmiş torpaqlara qayıdaraq, o torpaqların potensialından istifadə edəcəyik. Orada çox böyük potensial - bərpaolunan enerji növləri, qiymətli təbii sərvətlər, qızıl yataqları, mis yataqları, çaylar, su anbarları, kənd təsərrüfatı üçün münbit torpaq, turizm imkanları var. Yəni, bu bölgələr bir çoxlarının fikrinə görə, növbəti inkişafımızın aparıcı qüvvəsinə çevriləcək. Mən də əlbəttə ki, bu fikri bölüşürəm. Sadəcə olaraq, azad edilmiş torpaqlarda hər şey planlı şəkildə aparılmalıdır, düzgün aparılmalıdır. Azad edilmiş torpaqların idarə edilməsi ilə bağlı məndə fikirlər var. Bu fikirlər yaxın zamanlarda həyata keçiriləcək. O bölgələrdə mövcud olan vəziyyətə uyğun müasir idarəetmə sistemi qurulmalıdır ki, orada hər şey planlı şəkildə təmin edilsin - şəhərsalma, dövlət orqanlarının funksiyaları. Çünki bilirsiniz, əfsuslar olsun ki, ölkəmizin müxtəlif yerlərində bəzi xoşagəlməz hallar məhz nəzarətsizlik ucbatından baş verir. Bəzi yerlərdə torpaqlar zəbt edilir, insanların əlindən alınır, qeyri-ədalətli şəkildə bölünür. O cümlədən su resursları qeyri-ədalətli şəkildə bölünür, bəzilərinə su çatır, bəzilərinə su çatmır. Bütün bunlar bizə yaraşmır. Biz özümüzü bu qüsurlardan təmizləməliyik və təmizləyirik. Təmizləmə prosesi gedir və gedəcək. Hər kəs bunu bilsin. Heç kim hesab etməsin ki, onun hansısa xüsusi imtiyazı var. Yaxud da ki, kimsə özünü toxunulmaz hesab etməsin. Azad edilmiş torpaqlarda hər şey demək olar ki, dağıdılıb. Ona görə biz elə bir inkişaf modeli qurmalıyıq ki, ondan sonra biz onu bütün başqa torpaqlara da, necə deyərlər, transfer edə bilək, mövcud qüsurlar aradan qalxsın və ölkəmizin uğurlu inkişafı təmin edilsin.

Mənim, əlbəttə ki, əsas işim Qarabağ məsələsinin həlli və sentyabr ayından başlayaraq gedən müharibəyə Ali Baş Komandan kimi rəhbərlik etməyim idi. Bu gün də mənim fəaliyyətimdə o bölgələrin - Qarabağ bölgəsinin bərpası xüsusi yer tutur. Bu, təsadüfi deyil, bu, təbiidir. Ancaq, eyni zamanda, mən ənənəvi iş fəaliyyətimə də həmişə diqqət yetirmişəm. Sumqayıta gəlməyim onu bir daha göstərir.

Müharibə başa çatdı, müzəffər Ordumuz müharibədə qələbə çaldı, düşməni məğlub etdi. Azad olunmuş torpaqların bərpası üçün əlimizdən gələni edəcəyik. Hər gün mənim işimin əsas hissəsi buna həsr olunur. Ancaq digər ərazilərin inkişafı da heç vaxt yaddan çıxmayacaq, Azərbaycan xalqı əmin ola bilər. Əminəm ki, biz bu ili də uğurla başa vuracağıq, daha güclü Azərbaycan quracağıq.

- Cənab Prezident, icazənizlə Müzəffər Ali Baş Komandanımıza Qələbəyə görə öz adımızdan təşəkkür edək. Siz demisiniz ki, Qarabağ cənnətə dönəcək. Buna heç bir şübhəmiz yoxdur, təşəkkür edirik.

- Prezident İlham Əliyev: Sağ olun.

XXX

Qeyd edək ki, Azərbaycanın ilk, Cənubi Qafqazın ən böyük sənaye parkı - Sumqayıt Kimya Sənaye Parkında artıq qeydiyyata alınmış 24 rezidentdən 15-i istehsal fəaliyyətinə başlayıb. Sənaye parkında məhsul istehsalı və ixracı istiqamətində müsbət dinamika davam edir. 2020-ci ildə parkda 1,1 milyard manatlıq məhsul istehsal edilib ki, bu da əvvəlki illə müqayisədə 37 faiz çoxdur. İxrac isə 2019-cu illə (276 milyon manat) müqayisədə 18 faiz artaraq 2020-ci ildə 336 milyon manat təşkil edib.

Beləliklə, Sumqayıt Kimya Sənaye Parkında təməli qoyulan və açılışı edilən müəssisələrin timsalında əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin sənayeləşmə siyasətinə uyğun olaraq, mövcud təbii və iqtisadi resursların istehsala cəlb edilməsi, qabaqcıl texnologiyaların daha geniş tətbiqi istiqamətində sistemli tədbirlər davam etdirilir.



# Əli Əhmədov: "Milli şuranın" milli xəyanəti yeni hadisə deyil



**Müxalifətin radikal qanadının yaratdığı "milli şuranın" Azərbaycanın milli maraqlarına tam zidd siyasi xətt tutması yeni hadisə deyildir. SİA-nın məlumatına görə, bunu Baş nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov deyib.**

Ə.Əhmədov qeyd edib ki, "Milli şura" adlandırılmasına baxmayaraq, təsis edildiyi ilk gündən anti-milli mahiyyət nümayiş etdirməsi bu qurumun az qala siyasi brendinə çevrilib. Əslində, onun konstruksiyası dövlətin milli maraqları anlayışı strukturunda özünə yer tapa bilməmişdir və ya bunu istəməmişdir. Azərbaycana qarşı təbliğat aparmaq "milli şuranın" təkcə siyasi taktikası deyil, həm də ideologiyasıdır. Onun siyasi fəlsəfəsində və apardığı təbliğatda müxtəlif xarici qüvvələrin anti-Azərbaycan kampaniyaları ilə oxşar cəhətlər o qədər çoxdur ki, bunları sadəcə təsadüf kimi qiymətləndirmək sadəlövhlük olardı. "Milli Şuranın" və anti-Azərbaycan qüvvələrin ölkəmizə qarşı apardığı çirkin siyasi kampaniyanın vahid ideoloji-təbliğat platformadan çıxış etməsi ikinci Qarabağ müharibəsinin başa çatmasından sonra bir daha özünün təkzibedilməz təsdiqini tapmaqdadır: "Qarabağın azad olunması, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi və tarixi ədalətin bərqərar olunması ilə yekunlaşmış Vətən müharibəsinin nəticələrinin təftiş edilməsi Azərbaycanın düşmənlərini və onlara havadarlıq edənlərin anti-Azərbaycan təbliğatının başlıca vəzifəsinə çevrilib. Müharibədə məğlub olan, işğal etdiyi Azərbaycan ərazilərini geri qaytarmağa məcbur edilən, ordusu tar-mar olunmuş Ermənistanın bu yönümdə əlacsız cəhdlərini bəlkə də başa düşmək olar. Lakin "milli şuranın" rəhbərləri olan Əli Kərimli - Cəmil Həsənli cütlüyünün və ətrafındakıların mahiyyət etibarilə anti-Azərbaycan dairələrin apardığı çirkin kampaniyadan heç nə ilə fərqlənməyən hərəkətlərini, böhtançı və əslində, satqın təbliğat kampaniyalarını başa düşmək heç cür mümkün deyil. Sağlam təfəkkür bu işdə acizdir. Buna görə də minlərlə, on minlərlə insan "milli şura" təmsilçilərinin dövlət maraqlarımızla daban-dabana zidd olan hərəkətlərini və təbliğatını sadəcə lənətləyirlər.

Təxminən 30 il bundan əvvəl indiki "milli şurada" cəmləşən insanların təmsil olunduğu hakimiyyətin bağışlanmaz səhvləri nəticəsində Ermənistanın Azərbaycana qarşı təcavüzünə layiqli müqavimət göstərilmədi, Dağlıq Qarabağ və ətrafındakı rayonlar işğal edildi. Azərbaycanın ərazi bütövlüyünün qorunmasını təmin etmək əvəzinə hakimiyyətdaxili çəkişmələri qızışdıran, ölkədə separatizmin alovlanmasına rəvac verən məsuliyyətsiz siyasət aparan, milli birliyi təmin edə bilməyən, ölkədə xaos və anarxiya yaradan və bu səbəblərdən bütünlüklə iflas olan AXC-Müsavat hakimiyyəti son anda ölkəyə daha bir ağır zərbə vurdu - Prezident və Ali Baş Komandan Əbülfəz Elçibəy 1993-cü il iyun ayının 18-də Ordubadın Kələki kəndinə qaçdı, hökumət üzvləri isə vəzifələrini "dondurduqlarını" elan edərək hakimiyyət böhranını daha da dərinləşdirdi. AXC-Müsavat hökumətinin bu hərəkətinin komandirin ordunu döyüş meydanında qoyub qaçmasından heç bir fərqi yoxdur. Birinci hal nə qədər ağır cinayətdirsə, ikinci hal ondan heç də az olmayan cinayətdir.

Görünür heç də təsadüfi deyildir ki, bir çox erməni siyasətçiləri və adi insanlar ölkənin indiki baş naziri Paşinyanı Ermənistanın Elçibəyi adlandırırlar. Bu həm də ona işarədir ki, mənfur düşmən də birinci Qarabağ müharibəsi zamanı Azərbaycan torpaqlarının işğal olunmasında AXC-Müsavat hakimiyyətinin cinayət xarakterli "xidmətlərinin" xüsusi rol oynadığını etiraf edir.

Qanlı yanvar hadisəsinin növbəti ildönümü ərəfəsində qeyd etmək yerinə düşər ki, AXC-Müsavat hakimiyyətində təmsil olunanların 1993-cü ilin iyununda vəzifələrini tərk edib gizlənmələri onların heç də ilk qaçışı deyildi. 1990-cı ilin yanvar ayında əliyalın insanları sərxoş və beyinləri dumanlı sovet ordusu əsgərlərinə müqavimət göstərmək üçün küçələrə dəvət edənlər dəhşətli qırğın zamanı hərəsi bir yana qaçıb gizləndilər. O cümlədən o zaman hələ Əbülfəz Əliyev olan Elçibəy də qaçıb 6 ay üzə çıxmadı.

Lakin 20 yanvar tarixinin dəyanət, ləyaqət və cəsarət nümunəsi də var. Bakıya qoşun yeridib dinc əhaliyə divan tutan M.Qorbaçovun siyasi təqibə məruz qoyduğu Ümummilli Lider Heydər Əliyev onun həyatına birbaşa təhlükə olmasına baxmayaraq, imperiyanın paytaxtı Moskvada mətbuat konfransı keçirərək, azərbaycanlılara qarşı törədilən qanlı cinayəti qətiyyətlə pislədi, onu təşkil edən SSRİ rəhbərliyini ittiham etdi. O zaman, İlham Əliyev də həmin mətbuat konfransında iştirak etməklə həyatını real təhlükə altına qoymuşdu.

Beləliklə, xalqın taleyinin ən həssas anlarında iki davranış nümunəsi tarixə həkk olunub: bir tərəfdə Heydər Əliyevin və onun oğlu İlham Əliyevin Bakı qırğınını törədən Sovet imperiyasının paytaxtında açıq mətbuat konfransı təşkil edərək M.Qorbaçovu azərbaycanlılara qarşı qətliam törətməkdə ittiham etməsi, digər tərəfdə isə Bakıda özünü ölkənin gələcək lideri kimi görənlərin canlarını qurtarmaq üçün biabırcasına qaçıb gizlənməsi. Nə qədər fərqli insanlar, nə qədər fərqli xarakterlər. Heç də təsadüfi deyil ki, AXC-Müsavat hakimiyyətinin ölkəni ağır böhrana salan, məğlub vəziyyətə gətirən rəhbərləri 1993-cü ilin iyun ayında yenidən qaçıb gizlənməyə üstünlük verdilər, Heydər Əliyev isə onların mirasını aradan qaldırmalı, erməni təcavüzünün ölkənin dərinliklərinə irəliləməsinin, separatizmin və digər təhlükəli meyillərin qarşısını almalı oldu. Və nəhayət, AXC-Müsavat hakimiyyətinin uduzduğu müharibənin acınacaqlı nəticələrini aradan qaldırmaq missiyasını 1990-cı ilin yanvarında qaçıb gizlənənlərdən fərqli olaraq, Sovet imperiyasının mərkəzində əli qana batmış Qorbaçova ittihamlar səsləndirən Heydər Əliyevlə birlikdə dayanan İlham Əliyev yerinə yetirdi.

Paradoks bundan ibarətdir ki, 1992-1993-cü illərdə birinci Qarabağ müharibəsini uduzan AXC-Müsavat hakimiyyətinin "milli şurada" təmsil olunan nümayəndələri II Qarabağ müharibəsində xalqımızın şanlı qələbəsinin tarixi əhəmiyyətinin üzərinə kölgə salmağa çalışır, nəticələri təftiş edir və bu hərəkətləri ilə anti-Azərbaycan qüvvələrlə bir mövqedə dayanırlar. Xalqımızın və dövlətimizin düşmənləri ilə eyni mövqedə olan, eyni dərəcədə anti-Azərbaycan təbliğatı aparanlar özlərini nə qədər "milli şura" adlandırsalar da, milli xəyanət yoluna yuvarlandıqlarından yaxalarını kənara çəkə bilməyəcəklər.

Vətən müharibəsi tarixi qələbəmizlə başa çatıb. Düşmən məğlub olub. 30 il işğal altında olan Qarabağ azad edilib. Bütün dünya Prezident, Ali Baş Komandan İlham Əliyevin möhtəşəm zəfərini qəbul edir, Cənubi Qafqazda tamamilə yeni reallıqların meydana gəlməsi faktı ilə razılaşır. Əli Kərimli-Cəmil Həsənli cütlüyü isə bəzi maraqlı dairələrin dəstəyi ilə əldə etdiyi təbliğat imkanlarını səfərbər edərək tarixi qələbəmizə inamı sarsıtmağa, xalqın yeni qürur və ilham mənbəyinə şübhə yaratmağa çalışır. Buna milli xəyanətdən başqa ad vermək mümkün deyil. Təəssüf ki, milli maraqlarımıza xəyanət "milli şura" adı altında həyata keçirilir".




# Prezidentin köməkçisi Hikmət Hacıyev Respublika Veteranlar Təşkilatının Rəyasət Heyətinin iclasında iştirak edib

**Yanvarın 16-da Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının Rəyasət Heyətinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, gündəliyə uyğun olaraq, iclasda Respublika Veteranlar Təşkilatının fəaliyyətinin gücləndirilməsi barədə məsələ müzakirə edilib. İclası giriş sözü ilə təşkilatın sədri, ehtiyatda olan general-polkovnik Tofiq Ağahüseynov açaraq qurumun fəaliyyəti barədə məlumat verib.**



Prezidentin köməkçisi Hikmət Hacıyev iclasda çıxış edərək Respublika Veteranlar Təşkilatının ölkənin ictimai-siyasi həyatındakı, o cümlədən müharibə, əmək və silahlı qüvvələr veteranlarının problemlərinin həll olunmasındakı rolunu vurğulayıb, bu kateqoriyadan olan insanların dövlət qayğısı ilə əhatə edildiyini bildirib. O, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən veteranlara göstərilən dövlət qayğısının yeni səviyyəyə qalxdığını, Respublika Veteranlar Təşkilatına müasir standartlara tam cavab verən inzibati binanın ayrıldığını, müharibə veteranlarına verilən birdəfəlik maddi yardımın və pensiyaların miqdarının ildənilə artırıldığını, veteranların mənzil və digər problemlərinin həll olunduğunu qeyd edib.

Hikmət Hacıyev ötən əsrin 90-cı illərinədək veteran ifadəsi dedikdə, ilk növbədə, Böyük Vətən müharibəsində iştirak edən bir qədər yaşlı insanların yada düşdüyünü, lakin həmin ifadənin əvvəlcə Birinci Qarabağ müharibəsində, daha sonra isə 44 günlük Vətən müharibəsində gəncləşdiyini vurğulayıb. O, Respublika Veteranlar Təşkilatının üzərinə yeni vəzifələrin düşdüyünü, Qarabağ uğrunda bütün döyüşlərdə iştirak etmiş şəxslərin də bu qurumun fəaliyyətinə cəlb olunmasının, onları narahat edən məsələlərin həll olunmasının vacibliyini qeyd edib.

Prezidentin köməkçisi Respublika Veteranlar Təşkilatının yeni gənc veteranlarla körpü rolu oynayacağına, onlarla daim bağlantı yaradacağına ümid edərək, təşkilatda təmsil olunan ağsaqqal və ağbirçək veteranların məsləhətlərinə hər zaman ehtiyac olduğunu diqqətə çatdırıb.

Hikmət Hacıyev Respublika Veteranlar Təşkilatının qarşısında ciddi vəzifələrin durduğunu diqqətə çatdırıb, qurumun yerlərdə fəaliyyətinin gücləndirilməsinin, veteranları narahat edən problemlərin öyrənilərək müvafiq qurumların diqqətinə çatdırılmasının, beynəlxalq veteranlar təşkilatları ilə əlaqələrin genişləndirilməsinin, veteranlarla iş sahəsində beynəlxalq təcrübənin öyrənilərək tətbiq edilməsinin vacibliyini vurğulayıb. O, ölkə başçısının müvafiq Fərmanı ilə bir neçə gün öncə yerli icra hakimiyyətlərində Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin yaradıldığını qeyd edərək, Veteranlar Təşkilatının həmin şöbələrlə əməkdaşlığının əhəmiyyətini bildirib.

Rəyasət Heyətinin üzvləri çıxış edərək təşkilatın 2020-ci il üzrə fəaliyyətini yüksək qiymətləndirib, veteranların sosial-hüquqi müdafiəsinin gücləndirilməsi, gənclərin hərbi vətənpərvərlik, dövlətçilik ruhunda tərbiyəsinin təşkili və s. istiqamətlərdə gördükləri işləri qənaətbəxş hesab ediblər.

Daha sonra Respublika Veteranlar Təşkilatının sədri T.Ağahüseynovun səhhəti ilə əlaqədar qurumun gündəlik fəaliyyəti ilə bağlı bəzi məsələlərin daha operativ həllində çətinliklərin yarandığı qeyd olunub, onun vəzifəsindən azad olunması məqsədəuyğun hesab edilib. Rəyasət Heyəti üzvləri tərəfindən təşkilatın sədri vəzifəsinin icrasının İkinci Dünya müharibəsi veteranı, Prezident təqaüdçüsü Fatma Səttarovaya həvalə edilməsi təklif olunub. Hər iki təklif səsə qoyularaq yekdilliklə qərar qəbul edilib.

Sonda Fatma Səttarova və Rəyasət Heyətinin digər üzvləri Respublika Veteranlar Təşkilatına göstərdiyi diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə səmimi təşəkkürlərini çatdırıb, təmsil olunduqları qurumun ölkə başçısının çağırışlarına cavab verməsi üçün bütün bilik və bacarıqlarını sərf edəcəklərini bildiriblər.



# Azərbaycanda koronavirusa qarşı vaksinasiya prosesi başlayıb

Yanvarın 18-də Azərbaycanda COVID-19-a qarşı vaksinasiya prosesinə səhiyyə işçilərinin peyvəndlənməsi ilə start verilib. AZƏRTAC xəbər verir ki, Bakı Sağlamlıq Mərkəzində başlayan vaksinasiya zamanı səhiyyə naziri Oqtay Şirəliyev, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev, səhiyyə nazirinin müavinləri Viktor Qasımov, Elsevər Ağayev, nazirliyin Səhiyyənin təşkili şöbəsinin müdiri Teymur Musayev, TƏBİB-in Xəstəliklərin profilaktikası və kontrolu departamentinin müdiri Yaqut Qarayeva, TƏBİB-in Tibbi xidmətlər departamentinin rəhbəri Firəngiz Əliyeva peyvənd olunublar.





Daha sonra O.Şirəliyev jurnalistlərə açıqlamasında bildirib ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın səyi nəticəsində Azərbaycan əhalisini ilk vaksinasiya edən ölkələr sırasındadır: "Azərbaycan Çinin "Sinovac" şirkətinin istehsal etdiyi "CoronoVAC" vaksinini alıb. Vaksin bir neçə ölkədə kliniki sınaqlardan keçirilib. Peyvəndin mənfi təsirləri olmayıb. Digər məsələ həmin vaksinin effektivliyidir. Bununla bağlı müxtəlif ölkələrdən fərqli nəticələr əldə olunub. Lakin həmin vaksin çox effektlidir. Vaksin vurduran insanların müəyyən hissəsi xəstələnə bilər, lakin onlar bu xəstəliyi çox yüngül keçirdirlər. Bunların hamısı nəzərə alınaraq "CoronoVAC" vaksini seçildi. Həmin peyvənd artıq Azərbaycandadır və bu gündən ölkəmizdə vaksinasiya kampaniyasına başlanılıb".

Z.Əliyev bildirib ki, "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na əsasən, ilk növbədə, əhalinin sosial və tibbi cəhətdən yüksək risk qruplarının peyvənd edilməsi nəzərdə tutulur. "Düşünürəm ki, qısa zamanda vaksinin müsbət təsirini görəcəyik və COVID-19 pandemiyasına son qoyan ilk ölkələrdən biri olacağıq", - deyə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri bildirib.

Qeyd edək ki, Nazirlər Kabinetinin 2021-ci il 16 yanvar tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası" təsdiq edilib. Strategiyaya uyğun olaraq vaksinasiyanın birinci mərhələsində səhiyyə işçiləri, 65 yaşdan yuxarı şəxslər və hüquq-mühafizə orqanları tərəfindən əks-epidemik tədbirlərə cəlb olunan heyət peyvənd olunacaq. Strategiyanın əsas məqsədi ölkədə geniş yayılmış koronavirus pandemiyasının qarşısının alınmasına, virusa yoluxma və ölüm səviyyəsinin aşağı salınmasına nail olmaqdır. Vaksinin əhəmiyyəti immuniteti gücləndirmək yolu ilə xəstəlikdən qorunmaq, infeksiyanın ötürülməsini məhdudlaşdırmaq, ölüm halının qarşısını almaq və nəticədə səhiyyə sisteminə düşən yükü azaltmaqdan ibarətdir.

# Erməni deputatın açıqlaması etiraz doğurdu

**Baş nazir Nikol Paşinyanın "Mənim addımım" fraksiyasından olan deputat Arpi Davoyanın son açıqlaması erməni müxalifətində və müxalifyönlü mediada ciddi narazılıqla qarşılanıb. Azvision.az xəbər verir ki, deputat Ermənistandakı ən ciddi problemin müxalifət olduğunu deyib. Onun ölkənin bir nömrəli problemi kimi müxalifəti görməsi erməni jurnalistlərin də hiddətinə səbəb olub.**

"Razılaşın ki, belə bir açıqlama vermək üçün hədsiz həyasızlığa malik olmalısan. Nə üçün? Ona görə ki, Arpi Davoyan 5000-dən çox insanın ölümünə səbəb olan və on minlərlə əsgərin əlil qalmasına, itkin düşməsinə baiskar olan hökumətin komandasındadır. Yüzlərlə övladımız hələ də düşmən əsirliyindədir, ölkə isə ağır sosial-iqtisadi vəziyyətdədir. Bu adamlar Qarabağın düşmənləridir və Sünikdəki yüksək postları da verdilər. Amma əslində Arpi Davoyan kimi insanlar vəzifələri üçün titrəməyə davam edirlər. Əminliklərini göstərməyə çalışırlar ki, özlərindən başqa hamı günahkardır", - deyə məlumatda qeyd olunub.

# Oqtay Şirəliyev: "Sinovac" şirkətinin vaksini kifayət qədər effektlidir



Dünyada bir neçə müasir şirkət COVID-ə qarşı vaksin istehsal edib. Bütün ölkələr də öz əhalisini vaksinasiyadan keçirmək istəyir. Əksər ölkələrə növbə ilin sonuna, bəlkə də gələn ilə çatacaq, bundan tez olmayacaq. Lakin bizim ölkə rəhbərinin nüfuzu sayəsində demək olar ki, bütün firmalarla danışıqlar aparılıb. İstehsal olunan vaksinlərin xüsusiyyətləri, keyfiyyəti dəqiq öyrənilib. Mütəxəssislər də qərara gəldilər ki, Azərbaycan üçün ən yaxşı vaksin Çinin "Sinovac" şirkətinin vaksinidir. Qardaş Türkiyədə də həmin vaksindən istifadə olunur.

AZƏRTAC xəbər verir ki, bunu səhiyyə naziri Oqtay Şirəliyev deyib. Nazir bildirib: "Ölkə rəhbərinin də tapşırığı o idi ki, ilk növbədə, vaksin təhlükəsiz olmalıdır. Bu vaksin bir neçə ölkədə kliniki sınaqlardan keçirilib, tədqiqatlar aparılıb. Onun mənfi təsiri olmayıb. Bu, ən vacib məsələ idi. İkinci məsələ isə onun kifayət qədər effektivliyidir. Bununla bağlı müxtəlif ölkələrdən fərqli nəticələr əldə olunub. Lakin vaksin çox effektlidir. Vaksin vurduran insanların müəyyən hissəsi xəstələnə bilər, amma onlar bu xəstəliyi çox yüngül keçirdirlər. Bunların hamısı nəzərə alınaraq bu vaksin seçildi. Həmin peyvənd artıq Azərbaycandadır və bu gündən ölkəmizdə vaksinasiya kampaniyasına başlanılıb".

# YAP Gənclər Birliyinin videokonfransı keçirilib



Yanvarın 18-də Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin 2020-ci il ərzindəki fəaliyyətinin yekunlarına həsr olunmuş videokonfransda partiyanın rayon və şəhər təşkilatlarının gənclər birliklərinin sədrləri, eyni zamanda gənc fəallar iştirak edib. SİA-nın verdiyi məlumata görə, əvvəlcə Milli Məclisin deputatı, YAP Gənclər Birliyinin sədr əvəzi Ramin Məmmədov gəncləri salamlayıb və hesabatın gedişatında uğurlar arzulayıb. Daha sonra YAP İcra Katibliyinin Gənclərlə İş qrupunun rəhbəri Elmar Məmmədov, YAP Gənclər Birliyinin 2020-ci ildəki fəaliyyətini əks etdirən hesabatı konfrans iştirakçılarının diqqətinə çatdırıb.

YAP Gənclər Birliyinin hesabat dövründəki fəaliyyətini əks etdirən məruzə konfrans iştirakçıları tərəfindən qənaətbəxş hesab olunub. Ramin Məmmədov videokonfransda çıxış edərək YAP Gənclər Birliyinin fəaliyyətini yüksək qiymətləndirib. Ölkəmizdə gənclərin fəaliyyəti üçün hər cür şəraitin yaradıldığını deyən Ramin Məmmədov bildirib ki, Azərbaycanda gənclərin fəallıqlarının təmin olunması istiqamətində YAP da mühüm rol oynayır, onlar üçün əlverişli şəraitin yaradılmasına çalışır. Onun sözlərinə görə, partiyamızın sıralarında gənclərin sayının artması özü-özlüyündə YAP-ın təkcə bu günü ilə deyil, gələcəyi ilə bağlı böyük perspektivlərə malik olduğunu ifadə edir.

Daha sonra videokonfransda çıxış edən gənclər birliklərinin sədrləri hesabat dövründəki fəaliyyətlərini partiya rəhbərliyinin tövsiyə və tapşırıqları istiqamətində quraraq, ölkə Prezidenti cənab İlham Əliyevin davam etdirdiyi siyasi xəttin bütün ölkə gəncləri tərəfindən dəstəklədiyini qeyd edib, Azərbaycan gəncliyinin hərtərəfli istiqamətdə inkişafı üçün müxtəlif tədbirlər həyata keçirdiklərini və növbəti altı ay ərzində görüləcək işlərlə bağlı təkliflərini səsləndiriblər. Sonda videokonfrans iştirakçılarına qarşıda duran vəzifələrlə bağlı müvafiq tövsiyə və tapşırıqlar verildi.

# Şad xəbər: Pensiyaların artırılması nəzərdə tutulur



Ölkədə pensiyaların ilin əvvəlində indeksləşdirilərək artırılması nəzərdə tutulur. SİA-nın məlumatına görə, bunu 2020-ci ildə sosial sahədə aparılmış işlər və nəticələrinə dair müvafiq göstəricilərin təqdimatına həsr olunan mətbuat konfransında Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov deyib. A.Kərimov qeyd edib ki, ilin əvvəlində pensiya indeksləşdirilərsə, yanvarın sonunda artıq pensiyanın artım məbləği barədə rəqəm söyləyə biləcəklər.

# Darya Qrevtsova: Yeni logistika yolları sərfəli olacaq



"Yeni logistika yolları Azərbaycandan keçəcəyi üçün bu, həm Azərbaycana, həm Rusiyaya, həm də Ermənistana sərfəli olacaq. Bütün bu infrastruktur layihələri iqtisadi inkişafa müsbət təsir göstərəcək, çünki yeni yolların salınması bu yolların keçdiyi yerlərə investisiya axını və biznesin inkişafı deməkdir". Bunu rusiyalı politoloq Darya Qrevtsova Trend-ə açıqlamasında deyib.

Politoloq əlavə edib ki, işçi qrupu bir neçə məsələni həll etməlidir: "İlk növbədə, xəritədə bu yolların keçəcəyi yerlər və onların tikintisinin landşaft baxımından çətinlik səviyyəsi müəyyən edilməlidir. İkincisi, yolları tikəcək əsas podratçılar, Rusiya, Azərbaycan, Ermənistan və ya Türkiyə şirkətləri müəyyən olunmalıdır. Üçüncüsü isə kimin hansı xərcləri qarşılayacağı təyin edilməlidir. Bu, o qədər də asan olmayacaq, çünki bunun üçün əhəmiyyətli maliyyə vəsaiti tələb olunacaq".




# Azərbaycan tarixinin qanlı və şanlı səhifəsi

***1990-cı ilin yanvarında sovet qoşunlarının Bakıda azadlıq uğrunda ayağa qalxmış silahsız adamlara qarşı törətdiyi qırğında 131 nəfər öldürülmüş, 700-dən çox adam yaralanmışdı. Öldürülənlər arasında 5 millətin nümayəndələri, 20-dən çox qadın, uşaq var idi...***

...O qanlı günlərdən indiki Bakımızı və onun azad sakinlərini 31 il ayırır. Aradan illər ötüb keçsə də, qanlı-qadalı 20 Yanvar hadisələri canlı şahidlərin yaddaşında və Azərbaycan tarixində silinməz izlər qoyub. Əslində Odlar yurdumuzun paytaxtı 20 Yanvara 1980-ci illərin sonlarından başlayaraq günbəgün, addımbaaddım yaxınlaşırdı... Hələ 1988-ci il dekabrın 4-dən 5-nə keçən gecə Sovet imperiyasının rəhbərliyi paytaxtın baş meydanında xalqımızın azadlıq və müstəqillik istəyi ilə qatıldığı fasiləsiz mitinqləri zor gücünə dağıtmaq məqsədi ilə Bakıya hərbi qüvvələr yeritmiş, azad ruhun daşıyıcıları olan bir çox mübariz insanlar həbs edilmişdi.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə isə SSRİ müdafiə naziri D.Yazovun rəhbərliyi altında qoşun hissələri müxtəlif istiqamətlərdən əliyalın əhaliyə ağır texnikadan və müxtəlif tipli silahlardan atəş açaraq şəhərə daxil oldular. Şübhəsiz ki, Ermənistanda bir nəfər də azərbaycanlının qalmadığı o günlərdə, Bakıda yaşayan ermənilər də bu qanlı hadisələrə fitnəkarcasına zəmin hazırlamışdılar. Məhz həmin fitnəkarlığın nəticəsi idi ki, Sovet ordusunun təpədən-dırnağadək silahlanmış böyük heyətinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya təcavüzü xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklə müşayiət edilirdi. Küçələrdə şütüyən tanklar və zirehli maşınlar "barrikadaları" dağıdıb keçirdilər. Gözləri qızmış sərxoş əsgərlər dinc əhaliyə atəş açır, heç kəsə aman vermirdilər. Hətta təcili tibbi yardım maşınları, evlər gülləyə tutulurdu. Paytaxtın 20 yanvar səhəri dəhşətli mənzərələrlə sakinlərinin yaddaşına həkk olundu. Hər tərəfdə tankların əzib keçdiyi avtobuslar, yük və minik maşınları, qar üzərindəki qan izləri ağır faciənin miqyasından soraq verirdi. Bakının mərkəzi küçə və meydanları tanklarla, əli avtomatlı hərbçilərlə dövrəyə alınmışdı. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunan saatadək hərbçilər 100-ə yaxın günahsız insanı amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışdılar. Fövqəladə vəziyyət elan edildikdən sonra isə yanvarın 20-də və ondan sonrakı günlərdə Bakı şəhərində 21 nəfər qətlə yetirildi. Lakin Sovet ordusunun Azərbaycan xalqına qarşı həyata keçirdiyi hərbi təcavüz təkcə Bakı şəhəri ilə məhdudlaşmadı. Eyni zamanda, Kremlin "qızıl əsgərləri" fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda - yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfəri nişan alaraq qətlə yetirdilər. Yanvarın 13-14 -də Gəncədə 9 nəfər, yanvarın 18-19-da Sədərəkdə 9 nəfər soydaşımız da erməni ekstremistləri tərəfindən qətlə yetirilmişdi. Beləliklə, Qara Yanvarda Bakıda və respublikanın rayonlarında 148 nəfər öldürüldü, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milis nəfərləri də vardı. Artıq heç kimə sirr deyildi ki, Azərbaycanda günahsız insanların güllələnbaran edilməsi əməliyyatı SSRİ Müdafiə Nazirliyi, DİN xüsusi təyinatlıları və SSRİ DTK-nın təxribat qrupları tərəfindən təşkil olunmuşdu. Bu, bəşəriyyət və insanlıq əleyhinə törədilmiş ən dəhşətli cinayət əməli idi.

O müdhiş gecənin səhəri ümummilli lider Heydər Əliyev siyasi iradə nümayiş etdirərək Moskvadakı Azərbaycan nümayəndəliyinə gəlmiş və SSRİ rəhbərliyinin törətdiyi bu cinayəti qətiyyətlə pisləyərək bəyanatla çıxış etmişdir. Azərbaycan rəhbərliyinə qayıdışdan sonra Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ilin yanvar ayında Milli Məclisdə faciəvi 20 Yanvar hadisələrinə siyasi qiymət verildi.

20 Yanvar Azərbaycan tarixində təkcə faciə deyil, Azərbaycanın istiqlal yolunun şəhidlik zirvəsi, xalqımızın azadlıq istəyinin milli oyanış günüdür. Bu hadisə barədə ən dolğun fikri ulu öndər Heydər Əliyev söyləyib: "1990-cı ilin 20 Yanvarı Azərbaycan xalqının tarixinin ən faciəli, qara səhifəsi, həm də qəhrəmanlıq, rəşadət səhifəsidir. Biz o günlərdən nə qədər çox uzaqlaşsaq, həmin günlərin Azərbaycan xalqının tarixində necə mühüm yer tutduğunu bir o qədər dərk edəcəyik və bəlkə də gələcək nəsillər buna daha doğru, daha düzgün qiymət verəcəklər. Ancaq bir şey həqiqətdir ki, 1990-cı ilin 20 Yanvarı Azərbaycan xalqının həyatında dönüş mərhələsi, dönüş nöqtəsi olmuşdur".

Yanvar faciəsində qətlə yetirilənlərin, şəhid ailələrinin, əlillərin problemlərinin dövlət səviyyəsində həlli istiqamətində böyük tədbirlər həyata keçirilib. 2006-cı il yanvarın 19-da ölkə başçısı İlham Əliyevin fərmanı ilə 20 Yanvar şəhidlərinin ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilib. Prezidentin aylıq təqaüdü ilə bərabər, 20 Yanvar şəhidlərinin əmək pensiyası almaq hüququ olmayan ailə üzvlərinin hər birinə kommunal, nəqliyyat və digər xidmətlər üçün aylıq sosial müavinət, 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə əlilliyə görə aylıq sosial müavinət və ya əmək pensiyası, həmçinin onların uşaqlarına müavinət ödənilir. Şəhid ailəsi üzvlərinə pensiya təyinatı zamanı əlavə üstünlük verilməklə, onların əmək pensiyasının baza hissəsinin üzərinə əlavə də hesablanır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ötən dövrdə müharibə əlilləri ilə bərabər, 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslər və şəhid ailələrinin də mənzillə, eləcə də 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərinin minik avtomobilləri ilə təminatı həyata keçirilib. 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərin və şəhid ailələrinin ölkəmizin ali və orta ixtisas təhsil müəssisələrində ödənişli təhsil alan övladlarının təhsil haqqı dövlət büdcəsi hesabına ödənilir. Bununla yanaşı, hər il 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə və 20 Yanvar şəhidlərinin ailələrinə birdəfəlik maddi yardımlar verilir. Bu təbəqədən olan insanlar üçün qanunvericilik aktlarında bir sıra güzəşt və imtiyazlar da əksini tapıb. Qeyd olunanlarla yanaşı, əlilliyi olan şəxslərin tibbi-sosial reabilitasiyası işlərində də 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslər daim diqqətdə saxlanılır. Şəhidlər xiyabanı kompleksinin yenidən qurulması ilə bağlı dövlət başçısının Sərəncamı da Vətən şəhidlərinin xatirəsinə ehtiramın daha bir nümunəsidir.

Xalqımızın qan yaddaşında əbədi yaşayacaq 20 Yanvar faciəsi hər il ümumxalq hüzn günü kimi geniş qeyd edilir. Eyni zamanda, 20 Yanvar şəhidlərinin fədakarlığı məhəbbətlə xatırlanır, onların əziz xatirəsi böyük ehtiramla yad olunur. Bakının ən möhtəşəm məkanında Vətən uğrunda canlarını fəda vermiş mərd, igid oğul və qızlarımızın uyuduğu Şəhidlər xiyabanı xalqımız üçün müqəddəs bir and yerinə, milli iradəmizin şanlı-şərəfli bir salnaməsinə çevrilib. Şəhidlərimiz və Şəhidlər xiyabanı azadlığımızın, müstəqilliyimizin, milli iradəmizin simvolu kimi bundan sonrakı nəsillərə də bir qürur mənbəyi olacaqdır.

***Nurəddin Muğanlı***

## Hadrutdan qaçan ermənilərin görüntüləri yayıldı!



Erməni saytları Azərbaycan Ordusunun Hadrutu işğaldan azad etdiyi gün çəkildiyi iddia edilən yeni video yayıblar. Azvision.az xəbər verir ki, saytlar sözügedən videonu "Mediaport" kanalına istinadən paylaşıblar. Hadisə şahidləri videonun Hadrutun Azərbaycan hərbçilərinin nəzarətinə keçən gün çəkildiyini bildiriblər. Məlumata görə, Hadrutdan qaçan ermənilər Xankəndində restorana yığışıblar. Kadrlarda din xadimi ilə yanaşı əli silahlı döyüşçülər də əks olunub.

## Armsesns: 2020-ci ildə Ermənistana qoyulan investisiya sıfır həddinə çatıb



2020-ci ilin yanvar-sentyabr aylarında (müharibəyə qədər) Ermənistan iqtisadiyyatına yönələn birbaşa təmiz investisiya axını cəmi 630 min dollar (311 milyon dram) təşkil edib. SİA xəbər verir ki, bu barədə armsens teleqram kanalı etibarlı mənbələrə istinadən məlumat yayıb. 2019-cu ilin eyni müddətində bu məbləğ 80 milyon, 2018-ci ildə 128 minlyon 2016-cı ildə 96 milyon, 2015-ci ildə 168 milyon dolları əhatə edib. Beləliklə, 2019-cu illə müqayisədə investisiya azalması 99,2%-i təşkil edib.

***Rövşən RƏSULOV***

# Qalib Liderin Qələbə yürüşü!

## Prezident İlham Əliyev: “Böyük qayıdış başlayır, bütün işlərə start verildi”

***Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ordumuzun Ali Baş Komandanı İlham Əliyev cənablarının 44 günlük müharibənin zəfərlə bitən və işğaldan azad edilən bölgələrə dərhal tarixi səfərləri hər bir azərbaycanlıya böyük qürur və fəxarət hissi yaşadır. Təbii ki, bu Qələbə zəfərdən sonra işğaldan azad olunan rayonlarına səfər Qalib Komandanın öz sevincini, görüləcək işlərlə bağlı məlumatları xalqı ilə paylaşması məqsədi daşıyır. Ən əsası isə, işğalçı ölkə ilə bərabər, bütün dünya da şahidi oldu ki, torpaqların əsl sahibləri qayıdıb...***



Azərbaycan öz əbədi və əzəli torpaqlarını işğalçılardan azad etdi. Qalib ölkənin Müzəffər Komandanı qazanılmış Qələbəyə möhürünü vurmaq üçün həmin ərazilərə tarixi səfərlərini edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva yanvarın 14-də Azərbaycanın işğaldan azad edilən mədəniyyət paytaxtı Şuşa şəhərində olublar.

Qeyd edək ki, səfər zamanı dövlətimizin başçısının avtomobili özünün idarə etməsi isə hər kəsə açıq şəkildə mesaj verdi ki, “Mən Şuşaya Qələbə yolu ilə gəlmişəm!”. Azərbaycan xalqı və Prezidenti heç kəsdən və heç nədən qorxmur. Biz qalibik! Zəfər bizimdir! Qarabağ Azərbaycandır!

### Füzuli Beynəlxalq Hava Limanının təməli qoyuldu

Prezident İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27-ci kilometrində Füzuli-Şuşa yolunun, həmçinin Füzuli rayonunda hava limanının təməllərini qoyub: “Bu gün yanvarın 14-də Füzuli Beynəlxalq Hava Limanının təməli qoyuldu. Mən hava limanının tikintisi ilə bağlı Azərbaycan xalqına məlumat vermişdim. Bu, azad edilmiş bölgələrimizin inkişafı üçün çox önəmli bir layihədir”.

Bunu Prezident İlham Əliyev Füzuli rayonunda Beynəlxalq Hava Limanının təməlinin qoyulması zamanı deyərək bildirib ki, Füzuli Beynəlxalq Hava Limanı bu il istifadəyə verilməlidir: “Hər halda uçuş-enmə zolağı bu il istifadəyə verilməlidir. Hava limanının binası isə ola bilər bu il, ola bilər gələn il istifadəyə veriləcək. Bu hava limanının əsas məqsədi xarici qonaqların Şuşaya gəlişini təmin etməkdir. Çünki buradan Şuşaya olan məsafə o qədər də böyük deyil. Nəzərə alsaq ki, bu gün Füzuli-Şuşa dördzolaqlı və bəzi yerlərdə altızolaqlı yeni avtomobil yolunun təməli qoyulub, xarici qonaqlar Füzuli Beynəlxalq Hava Limanına gələrək, çox rahat və qısa müddət ərzində Şuşa şəhərinə gedə biləcəklər.

Şuşa şəhəri mənim tərəfimdən Azərbaycanın mədəniyyət paytaxtı elan edildi. Şuşa şəhərinin bərpası və tarixi simasının özünə qaytarılması istiqamətində işlərə start verildi. Bütövlükdə müharibədən cəmi iki ay vaxt keçib, ancaq böyük quruculuq işlərinə start verildi. Azad edilmiş torpaqlarımızda ikinci beynəlxalq hava limanı Kəlbəcər və ya Laçın rayonlarının ərazisində inşa ediləcək. İndi yer seçilir və beləliklə, iki beynəlxalq hava limanının tikintisi yaxın zamanlarda təmin edilməlidir”.

“Böyük qayıdış başlayır, bütün işlərə start verildi”,-deyən dövlət başçısı vurğulayıb ki, qısa müddətdə işğaldan azad edilmiş torpaqlarımız bərpa ediləcək: “Əminəm, necə ki, düşməni qısa müddət ərzində torpaqlarımızdan qovduq, - cəmi 44 gün ərzində, - bizim tarixi dədə-baba torpağımız olan Qarabağı da qısa müddətdə bərpa edəcəyik. Qarabağ Azərbaycandır!” Prezidenti İlham Əliyev Şuşaya səfəri zamanı yolun kənarında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla birgə asılan fotolarına da diqqət yetirib: “İki qardaş”.

### “AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində Şuşa işğal altına düşdü”

“1992-ci ilin mayında o vaxtkı Azərbaycan rəhbərliyinin və hakimiyyət uğrunda mübarizə aparan AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində Şuşa işğal altına düşdü”,-deyən dövlət başçısı vurğulayıb ki, o vaxtkı müdafiə naziri demişdi ki, Şuşa əldən getsə, başıma güllə çaxacağam, qorxaqcasına Şuşadan qaçmışdı: “Ondan sonra isə ermənilər guya bu əməliyyat haqqında əfsanələr uydurmuşdular - dağlarda toy. İndi biz onlara elə toy tutmuşuq ki, onlar bu dərsi əbədi yadda saxlayacaqlar. Qəhrəman Azərbaycan övladları mükəmməl hərbi əməliyyat keçirərək cəsarət, rəşadət, qəhrəmanlıq, güc, milli ruh nümayiş etdirərək Şuşanı işğalçılardan azad etmişlər və uzun fasilədən sonra noyabrın 8-də Şuşada Azərbaycan bayrağı qaldırılmışdır”.

“Bakıda möhtəşəm Dövlət Bayrağı Meydanı açılanda mən çıxış edərkən demişdim ki, gün gələcək və Azərbaycan bayrağı işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada qaldırılacaqdır”,-deyən Prezident İlham Əliyev: “Bax, bu gün gəldi. Xatırlayıram, erməni separatçı rejiminin bəzi dırnaqarası nümayəndələri o vaxt demişdilər ki, ancaq bir halda Azərbaycan bayrağı Şuşada qaldırıla bilər, o da əgər Azərbaycan “Dağlıq Qarabağ respublikası”nı tanısa və Azərbaycan Dağlıq Qarabağda öz səfirliyini açsa. Görün, nə qədər iyrənc, nə qədər təkəbbürlü ifadələr işlədilib. İndi siçan kimi oturublar, dillərini qoyublar qarınlarına. Bir kəlmə də söz deyə bilmirlər. Biz buraya qalib kimi gəlmişik, bayrağı da qaldırmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Döyüşə-döyüşə gəlmişik. Heç kim bu torpaqları bizə elə-belə verməyib. Heç bir danışıqlar heç bir əhəmiyyətə malik deyildi. Biz gördük ki, ancaq öz gücümüzlə öz torpaqlarımızı azad etməliyik və bunu etdik. Bütün dünyaya gücümüzü sübut etdik, göstərdik, düşmənin başını əzdik. Düşməni məcbur etdik ki, qabağımızda diz çöksün, kapitulyasiya aktına imza atsın. Belə də oldu və alçaldıcı kapitulyasiya aktı tarixdə əbədi qalacaq”.



### “Bizim şanlı Ordumuzun 44 günlük müharibəsi XXI əsrin müharibəsidir”

Prezident İlham Əliyev bildirib ki, müharibə başlayan gündən mən deyirdim ki, rədd olun bizim torpağımızdan, dərhal öhdəlik götürün: “Bütün təzyiqlərə, bütün telefon zənglərinə, bütün təhdidlərə baxmayaraq, dedim ki, sona qədər gedəcəyik, düşməni torpaqlarımızdan qovacağıq. Etdik də, getdik də, qovduq da və düşmən məcbur olub noyabrın 10-da kapitulyasiya aktını imzaladı və beləliklə müharibəyə son qoyuldu.

Bu müharibə bizim tariximizdə əbədi yaşayacaq. Bu müharibəni biz şəhidlərimizin canı, qanı bahasına, hərbçilərimizin şücaəti hesabına qazanmışıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Allah onların yaxınlarına səbir versin!” Bütün şəhid ailələri dövlət tərəfindən qayğı ilə əhatə olunduğunu deyən Prezident İlham Əliyev bildirib ki, bütün şəhid ailələrinə dövlət tərəfindən mənzillər, evlər veriləcəkdir: “Bu müharibə bizim tariximizdə əbədi yaşayacaq. Bu müharibəni biz şəhidlərimizin canı, qanı bahasına, hərbçilərimizin şücaəti hesabına qazanmışıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Allah onların yaxınlarına səbir versin! Bütün şəhid ailələri dövlət tərəfindən qayğı ilə əhatə olunub. Bütün şəhid ailələrinə dövlət tərəfindən mənzillər, evlər veriləcək”,-deyən dövlət başçısı onu da vurğulayıb ki, artıq bu ildən başlayaraq göstəriş verildi: “Şəhid ailələri üçün müavinət 300 manatdan 500 manata qaldırıldı və daim o ailələr diqqət mərkəzində olacaqlar. Birinci Qarabağ müharibəsində həlak olmuş 9 min şəhidin ailəsinə dövlət artıq mənzillər, evlər vermişdir. Yaralı hərbçilərimiz dövlət tərəfindən qayğı ilə əhatə olunub. Əlil olmuş hərbçilərin reabilitasiyası, onların müasir protezlərlə təmin edilməsi məsələsi öz həllini tapacaq. Müharibədə qəhrəmanlıq göstərmiş minlərlə hərbçi mənim tərəfimdən yüksək orden və medallarla təltif edilib. “Vətən Müharibəsi Ordeni” Azərbaycanın ən ali hərbi ordenidir. “Zəfər” ordeni, “Qarabağ” ordeni. Bütün bu ordenlərin adlarını mən özüm təklif etmişəm. Qəsəbələrimizin, şəhərlərimizin azad edilməsi işində fərqlənmiş hərbçilərə o rayonların adlarını daşıyan medallar verilib”.

### “Mən demişəm ki, əgər kimsə Ermənistanda revanş haqqında düşünürsə, o, bizim dəmir yumruğumuzu bir daha görəcək!”

“Əlbəttə ki, bundan sonra biz Şuşanı göz bəbəyi kimi qorumalıyıq. Bizim hərbçilərimiz, bizim qəhrəman övladlarımız Şuşanı qoruyacaqlar ki, düşmən heç bu tərəfə baxmağa özündə cəsarət tapmasın. Mən demişəm ki, əgər kimsə Ermənistanda revanş haqqında düşünürsə, o, bizim dəmir yumruğumuzu bir daha görəcək. Bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi. Əgər bizə qarşı hər hansı bir təxribat törədilərsə, cavabımız çox sərt olacaq, çox peşman olacaqlar və yenə də acı məğlubiyyətlə üzləşəcəklər. Heç kim bizim qabağımızda dura bilməz”,- deyən dövlət başçısı bildirib ki, bundan sonra həmişə belə olacaq: “Azərbaycan Ordusu, xüsusi təyinatlılar, bizim qəhrəman övladlarımız, hərbi birləşmələrin döyüşçüləri Şuşanı və azad edilmiş bütün torpaqları göz bəbəyi kimi qorumalıdırlar ki, düşmən bir daha belə cəhd etməsin. Cəhd edərsə, axırı lap pis olacaq. Noyabrın 8-də Şəhidlər xiyabanında Azərbaycan xalqına Şuşanın azad edilməsi müjdəsini verərkən çıxışımın sonunda demişdim: Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Bu gün eyni sözləri təkrarlayıram. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!”.

# Qalib Liderin Qələbə yürüşü!

## Prezident İlham Əliyev: "Böyük qayıdış başlayır, bütün işlərə start verildi"





### "Şuşanın əsl sahibləri qayıdıb, biz qayıtmışıq. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!"

"Şuşa işğaldan azad olunandan sonra şəhərin, bütün tarixi binaların bərpa edilməsi prosesinə start verilib. Şuşanı erməniləşdirmə cəhdlərinə son qoyulub",-deyən dövlət başçısı bildirib ki, 30 il onlar çalışırdılar ki, Şuşanı erməniləşdirsinlər, nail ola bilmədilər: "Bu, onlar üçün yad şəhərdir, öz şəhəri saysaydılar, bu günə qoymazdılar. Şuşanın əsl sahibləri qayıdıb, biz qayıtmışıq. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!" Prezident İlham Əliyev çıxışlarının birində demişdi ki, ərazi bütövlüyümüz bərpa ediləndən sonra Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstləri yenə də Şuşada qoyulacaq. Dövlətimizin başçısının bu sözləri artıq reallığa çevrilib. Həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyulub.

"Bu gün Şuşaya gələrkən 30 ilə yaxın Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılan dahi şəxsiyyətlərimizin - Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün büstlərini gətirmişəm. Bu yerdə Mədəniyyət Evi yerləşirdi və Üzeyir bəyin, Bülbülün büstləri məhz bu yerdə qoyulmuşdu. Mənfur düşmən Şuşa Mədəniyyət Evini dağıdıb və dahi şəxsiyyətlərimizin büstlərini gülləbaran edib",-deyən Prezident İlham Əliyev deyib ki, Xurşidbanu Natəvanın büstünü Heydər Əliyev özü şəxsən açmışdır: "1982-ci ilin yay aylarında. Mən də o vaxt atamla birlikdə burada idim. Bax, buradan bir qədər aralı bir yerdə Xurşidbanu Natəvanın büstü qoyulmuşdu. Ermənilər dahi şəxsiyyətlərimizin büstlərini təhqir edəndən sonra onları əridib satmaq, pul əldə etmək üçün Ermənistana aparmışdılar. Görün nə qədər alçaq keyfiyyətli insan olmalısan ki, tarixi şəxsiyyətlərin xatirə büstlərini güllə ilə vurasan, təhqir edəsən, sonra aparıb bunu əritmək istəyəsən. O vaxt Polad Bülbüloğlu bundan xəbər tutmuş və ulu öndər Heydər Əliyevə müraciət etmişdi. Görülmüş tədbirlər nəticəsində bu büstlər ermənilərdən alındı. Onu da açıq deməliyəm, pulla alındı. Satdılar onlar. Necə ki, hər şeyi satıblar ömrü boyu. Büstləri də biz pulla almışıq. O vaxt gətizdirdik və onlar İncəsənət Muzeyinin həyətində yerləşdirildi".

"Dahi şəxsiyyətlərimizin büstləri bizim Qələbəmizin rəmzidir. Onların ruhu şaddır. Onlar doğma Vətənə qayıdıblar. Biz qaytarmışıq onları, düşməni qova-qova, düşməni məhv edərək, torpaqlarımızdan rədd edərək, Şuşanı geri alaraq, azad edərək qaytarmışıq. Burada duracaq, Şuşaya gələn hər bir insan yaxından görəcək erməni vəhşiliyini",- vurğulayan Prezident İlham Əliyev bildirib ki, tarixi ədalət bərpa olunur: "Biz tarixi ədaləti bərpa edirik - güc hesabına, əzm, iradə hesabına, cəsarət, mətanət hesabına, milli ruh hesabına! Natəvan, Üzeyir bəy, Bülbül milli ruhumuzun təcəssümüdür. Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayıb və əbədi yaşayacaqdır. Qarabağ Azərbaycandır!".

### "Məhz Heydər Əliyevin təkidi və cəsarəti nəticəsində o vaxt Azərbaycan buna nail ola bildi və bu yer də təsadüfən seçilmədi"

Məqbərənin qarşısında çıxış edən Prezident İlham Əliyev deyib: "Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmiş Molla Pənah Vaqifin məqbərəsinin düz 39 il bundan əvvəl - 1982-ci il yanvarın 14-də açılışı olmuşdur. Bu tarixi gün mənim yadımdadır. Çünki o vaxt atamla bərabər, bax, bu yerdə mən də durmuşdum. Bu, tarixi videokadrlar da var. Çox şaxtalı, qarlı bir hava idi. Möhkəm qar yağırdı. Amma buna baxmayaraq, bu tədbirə yığışmış insanlar, Azərbaycan ziyalıları heç o soyuğu hiss etmirdilər. Çünki Qarabağ xanının vəziri olan Molla Pənah Vaqifin möhtəşəm məqbərəsi açılırdı. Bu təşəbbüsü ulu öndər Heydər Əliyev irəli sürmüşdü, onun rəhbərliyi ilə inşaat işləri aparılmışdı və gözəl, əzəmətli məqbərə ucaldılmışdı. Xanın vəziri olan insanın şərəfinə o vaxt - sovet dövründə məqbərə ucaltmaq qeyri-adi bir hadisə idi. İndi buna hər kəs təbii hadisə kimi baxa bilər, amma o vaxt - sosializm dövründə xanın vəzirinin şərəfinə məqbərə ucaltmaq doğrudan da fövqəladə bir hadisə idi. Məhz Heydər Əliyevin təkidi və cəsarəti nəticəsində o vaxt Azərbaycan buna nail ola bildi və bu yer də təsadüfən seçilmədi. Molla Pənah Vaqifin qəbri buradadır. Bu məqbərənin yaradılması və açılışı bir tərəfdən Azərbaycan Respublikasının öz tarixinə, Azərbaycan xalqının öz dahi şəxsiyyətlərinə olan hörmətin əlaməti idi. Digər tərəfdən bu məqbərənin Şuşada açılması bir daha təsdiq edirdi ki, Şuşa Azərbaycan şəhəridir".

"Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılanda Şuşanı bu vilayətin tərkibinə salmaqla güdülən məqsəd də aydın idi ki, yavaş-yavaş, tədricən burada Azərbaycan izi silinsin, bu ərazi erməniləşdirilsin və azərbaycanlılar öz respublikasının bu ərazisində azlıq təşkil etsinlər. Məqsəd bu idi. Ulu öndər Heydər Əliyevin dövründə - 1969-1982-ci illərdə onun səyləri nəticəsində, siyasəti nəticəsində, o cümlədən Yevlaxdan, Ağdamdan Xankəndiyə dəmir yolunun çəkilişi, Dağlıq Qarabağda müəssisələrin yaradılması və bu müəssisələrə Azərbaycanın müxtəlif yerlərindən mütəxəssislərin gəlməsi burada milli tərkibin Azərbaycan xalqının xeyrinə xeyli dəyişmişdi və 1982-ci ildə azərbaycanlılar Dağlıq Qarabağ Muxtar Vilayətində əhalinin 25 faizini təşkil edirdi",- deyən dövlət başçısı bildirib ki, əgər o vaxt Heydər Əliyev Azərbaycanda qalsaydı, heç vaxt burada hər hansı bir münaqişə, yaxud da ki, separatizm meydana çıxa bilməzdi: "Əgər o vaxt Heydər Əliyev Azərbaycanda qalsaydı, növbəti 10 il ərzində Dağlıq Qarabağ Muxtar Vilayətində azərbaycanlılar əksəriyyət təşkil edəcəkdilər və beləliklə, heç vaxt burada hər hansı bir münaqişə, yaxud da ki, separatizm meydana çıxa bilməzdi, separatizm baş qaldıra bilməzdi. Ulu Öndərin uzaqgörənliyi, doğma xalqına bağlılığı, doğma ədəbiyyatına, mədəniyyətinə olan sevgisi, bax, bu məqbərənin tikintisində özünü göstərib".

"Mən dəfələrlə demişəm və bir daha deyirəm, əgər Heydər Əliyev 1982-ci ildə Bakıdan Moskvaya getməsəydi, əgər onu Moskvaya təyin etməsəydilər, heç vaxt imkan verməzdi ki, burada separatizm baş qaldırsın, heç vaxt. Ancaq Heydər Əliyev hakimiyyətə gələndə artıq Şuşa işğal altında idi, Kəlbəcər işğal altında idi, Laçın işğal altında idi, Daşaltı işğal altında idi, bütün ətraf bölgələr işğal altında idi və Dağlıq Qarabağla Ermənistan arasında coğrafi bağlantı yaradılmışdı".

### "Xalq Cəbhəsi-Müsavat hakimiyyəti bunun günahkarıdır"

"Xalq Cəbhəsi-Müsavat hakimiyyəti bunun günahkarıdır. Onlar bu xəyanəti törətdilər, ondan sonra da qorxaqcasına qaçıb gizləndilər, fərarilik etdilər, Şuşanı satdılar. Şuşa kimi alınmaz qalanı düşmənə təslim etdilər ki, Azərbaycandakı o vaxtkı hakimiyyəti yıxsınlar və hakimiyyətə gəlsinlər. Belə də oldu. Şuşanın əldən getməsi o vaxtkı hakimiyyətin süqutuna gətirib çıxardı. Xalq Cəbhəsi bundan istifadə edib Şuşa əldən gedəndən sonra və Laçın düşmənə təhvil veriləndən sonra hakimiyyətə gəldi. Hər kəs bu tarixi görə bilər, bu, yaxın tarixdir".

Prezident İlham Əliyev onu da bildirib ki, Xalq Cəbhəsi-Müsavat hakimiyyəti bunun günahkarıdır: "Sonra nə edib? Sonra da Azərbaycanda talançılığı dövlət siyasətinə çeviribb, rüşvətxorluğu öz ideoloji prinsipi elan edib, satqınlığı, fərariliyi Azərbaycan xalqının tarixinə bir ləkə kimi yapışdırıb. Xalq Cəbhəsi-Müsavat satqınları xalqımızı dünyanın gözü qarşısında rəzil etmişlər, biabır etmişlər. Ermənistan kim idi ki, biz onlara məğlub olaq? Kim idi? Xalq Cəbhəsi-Müsavat, antimilli ünsürlər Şuşanı düşmənə verdilər, özləri də qaçıb gizləndilər. Ondan sonra erməni vandalları bizim bütün şəhərlərimizi yerlə-yeksan etdilər. İndi azad edilmiş torpaqlarda olarkən bunu öz gözümlə görürəm və bütün dünya görməlidir. Məscidlərimizi, qəbirlərimizi, tarixi abidələrimizi, bütün binalarımızı yerlə bir ediblər".

### "Cıdır düzündə armudu stəkanda çay, paxlava ilə. Dostlarımız sevinsin, düşmənlərin gözü kor olsun!"

Şuşaya səfər çərçivəsində Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Cıdır düzündə də olublar. Prezident İlham Əliyev bildirib ki, Cıdır düzü hər birimiz üçün əziz, doğmadır: "Şuşanı Cıdır düzüsüz təsəvvür etmək mümkün deyil, Azərbaycanı isə Şuşasız təsəvvür etmək mümkün deyil. Biz Şuşaya qayıtmışıq, Cıdır düzünə qayıtmışıq və tarixi yerdə bundan sonra muğam səsi eşidiləcək, Azərbaycan mahnıları ifa olunacaq, böyük tədbirlər keçiriləcək, toy-bayram olacaq!",-deyən dövlət başçısı bildirib ki, bir müddət bundan əvvəl işğalçı qüvvələr bizim üçün müqəddəs olan bu yerdə heysiyyətimizə toxunmaq, Azərbaycan xalqını təhqir etmək üçün eybəcər hərəkətlər etmişlər, - bütün dünya artıq bundan xəbərdardır, - "Yallı" getmişlər: "İzi-tozu da qalmayıb burada, rədd etmişik. İndi Cıdır düzü də, Şuşa da, Qarabağ da azaddır. Bu torpağın sahibləri qayıdıblar, əllərində silah, əllərində bayraq, ürəklərində Vətən sevgisi. Vətən sevgisi bizi Qələbəyə gətirdi. Vətən sevgisi, vətənpərvərlik Qələbəmizin əsas amilinə çevrildi. Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib. On yeddi ildir ki, mən Azərbaycanın rəhbəriyəm. Bu illər ərzində yetişən insanlar bu torpaqları azad etdilər. Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi. 2003-cü ildə 10 yaşı, 15 yaşı olanların bu gün 27-32 yaşı var. Onların məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi".

### Prezident İlham Əliyev: "Cıdır düzündə armudu stəkanda çay, paxlava ilə. Dostlarımız sevinsin, düşmənlərin gözü kor olsun!"

Bəli, artıq Qalib ölkənin Qalib Lideri, bu torpağın sahibləri qayıdıblar, əllərində silah və bayraq, ürəklərində Vətən sevgisi! Dövlət başçımızın dediyi kimi: "Biz tarixi ədaləti bərpa edirik - güc hesabına, əzm, iradə hesabına, cəsarət, mətanət hesabına, milli ruh hesabına! Natəvan, Üzeyir bəy, Bülbül milli ruhumuzun təcəssümüdür. Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayıb və əbədi yaşayacaqdır. Qarabağ Azərbaycandır!"

**RƏFİQƏ KAMALQIZI**

# Vüqar Rəhimzadə: Şuşanın əvvəlki gözəlliyi daha da yeniləşdirilmiş şəkildə özünə qaytarılacaq

**"İkinci Qarabağ müharibəsi nəticəsində 30 illik işğala son qoyulması ilə öz tarixi sahibinə qayıdan ərazilərimizdə əsas prioritetlərdən biri quruculuq və bərpa işlərinə başlanılması oldu. Möhtərəm Prezidentimiz İlham Əliyevin işğaldan azad edilmiş şəhər və rayonlarımıza səfərləri çərçivəsində bu istiqamətdə qarşıya qoyulan vəzifələr, eyni zamanda, səfərdən sonra həmin ərazilərdə bərpa işlərinin aparılması ilə bağlı imzalanan sənədlər də bu torpaqların qısa müddətdə cənnət məkana çevriləcəyindən, yeni regional inkişaf proqramlarının icrasına başlanacağından xəbər verir.**



Bugünlərdə dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və qızları Leyla Əliyevanın Azərbaycanın işğaldan azad edilmiş mədəniyyət paytaxtı Şuşa şəhərinə səfərləri də yeni həyatın başlanmasını təsdiqləyən bir sıra mühüm məqamlarla yadda qaldı. Füzuli-Şuşa avtomobil yolunun və Füzuli rayonu ərazisində Beynəlxalq Hava Limanının təməlinin qoyulması deyilənlərin təsdiqidir. Füzuli-Şuşa avtomobil yolu müasir standartlara cavab verən dördzolaqlı, bəzi hissələrdə isə altızolaqlı olmaqla bölgənin nəqliyyat-kommunikasiya infrastrukturunun formalaşdırılmasında strateji əhəmiyyət daşıyacaq. Belə ki, Füzuli-Şuşa yolunun yeni işlənmiş layihəsinə körpü və tunellərin inşası daxildir. Yəni, çətin relyefə malik olan ərazilərdə dolama yolların yerinə körpü və tunellərin tikintisi nəzərdə tutulur. Yeni yol Füzuli aeroportu ilə əlaqələndiriləcək və bu magistraldan İsa bulağına yeni yol çəkiləcək. Qarabağın döyünən ürəyi kimi dəyərləndirilən Şuşanın əvvəlki gözəlliyi daha da yeniləşdirilmiş şəkildə özünə qaytarılacaq". Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, bu il Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi nəzərdə tutulur: "Artıq ölkə vətəndaşları, həmçinin xarici qonaqlar, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar Şuşaya təyyarə ilə rahat gələ biləcəklər. Füzuli Beynəlxalq Hava Limanından beynəlxalq uçuşların təşkil edilməsi istiqamətində də işlərə başlanılması ilə bağlı tapşırıqlar verilib. Bu isə öz növbəsində dünyanın istənilən guşəsindən Şuşaya rahat gedişi təmin edəcək. Dövlətimizin başçısı İlham Əliyevin Şuşaya doğru yolunu davam etdirərkən söylədiyi bu fikirləri bir daha yada salmaq istərdim: "Yolumuza davam edirik. Baxın, Günəş də çıxdı. Günəş də bizi salamlayır, yolumuzu işıqlandırır. Biz gedirik Şuşaya, azad edilmiş Şuşaya. Bu yolun tikintisi aparılır. Əminəm ki, ölkəmizin ən gözəl yollarından biri olacaq. Təbii ki, ən yüksək keyfiyyətlə tikiləcək. Eyni zamanda, mənzərəli yoldur, tarixi yoldur, Qələbəyə aparan yoldur".

"Ümumiyyətlə, Qarabağın yeni yaradılacaq avtomobil, hava və dəmiryol infrastrukturu bölgənin inkişafında xüsusi əhəmiyyətə malik olacaq" söyləyən baş redaktor bildirib ki, hər hansı bir regionun inkişafı üçün yol-nəqliyyat infrastrukturunun müasir tələblərə cavab verməsi çox böyük əhəmiyyət kəsb edir: "Son 17 ildə iqtisadi artımın qeyri-neft sektorunun hesabına olmasını qarşıya əsas məqsəd kimi qoyan dövlətimizin başçısı İlham Əliyevin yol infrastrukturunun beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi istiqamətində atdığı addımların müsbət nəticəsidir ki, Azərbaycan bu sahədə də beynəlxalq maliyyə qurumlarının hesabatlarında öz liderliyini qoruyur. Davos Ümumdünya İqtisadi Forumunun hesabatında Azərbaycan inkişaf etməkdə olan 74 ölkə arasında infrastruktur layihələri ilə bağlı dəmir yolu xidmətlərinin səmərəliliyinə görə 11-ci, hava yolları xidmətlərinin səmərəliliyinə görə 12-ci, avtomobil yollarının keyfiyyətinə görə 24-27-ci yerlərdədir. Bu baxımdan, işğaldan azad edilən ərazilərdə ilk olaraq müasir standartlara cavab verən yol-nəqliyyat infrastrukturunun yaradılması xüsusi önəm daşıyır. Bölgədə Füzuli Beynəlxalq Hava Limanından başqa, daha bir beynəlxalq hava limanının inşası da nəzərdə tutulub ki, bu da ya Kəlbəcər, ya da Laçın rayonlarının ərazisində olacaq. Bu ərazilərdə yol infrastrukturunun təkmilləşdirilməsi Azərbaycanın reytinq cədvəlində yerinin daha da yaxşılaşmasına öz müsbət təsirini göstərəcək. Bir sözlə, Azərbaycanın imkanlarını genişləndirmək və ölkəmizin inkişaf dinamikasını artırmaq üçün bütün bu işlərin daha fəal, məqsədyönlü şəkildə aparılması nəzərdə tutulub. Dövlətimizin başçısının tapşırığı ilə sosial, iqtisadi, humanitar, hüquqi və digər məsələlər üzrə yaradılan İşçi qrupları, hazırlanan Strateji Fəaliyyət Planı əsasında işlər bütün istiqamətlər üzrə planlı və kompleks yanaşma əsasında həyata keçirilir. Bu işlərin reallaşdırılması məqsədilə Əlaqələndirmə Qərargahı yaradılıb və bütün aidiyyəti dövlət strukturları Qarabağın bərpası tədbirlərinə cəlb olunub".

Baş redaktor vurğulayıb ki, bu baxımdan ölkə Prezidenti İlham Əliyevin 4 yanvar 2021-ci il tarixli Fərmanı ilə "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxsin yaradılması da olduqca əhəmiyyətlidir: "Əsas məqsəd işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması istiqamətində həyata keçirilən tədbirlərə investisiyaların cəlb edilməsini, bu sahədə dövlət-özəl investisiya əməkdaşlığının inkişafını təmin edən, eləcə də xarici və daxili investisiyaların cəlb edilməsi ilə bağlı zəruri təşviqat işlərini həyata keçirməkdir. Qarabağ bölgəsinin çox zəngin turizm potensialı vardır. Bu bölgəyə həyat qayıtdıqdan sonra turizm sektoru da inkişaf edəcək. Pandemiyadan sonra bərpa ediləcək beynəlxalq turizm sərgiləri bir daha Qarabağ bölgəsinin turizm potensialının təqdimatına öz töhfəsini verəcək. Qarabağ potensial imkanları ilə Azərbaycanın iqtisadi inkişafına davamlı töhfələr verməklə yanaşı, dünyanın diqqətini də özünə cəlb edəcək. İqtisadiyyatın şaxələndirilməsi daha da sürətlənəcək, Azərbaycan həmişə olduğu kimi, gələcəkdə də ortaya çıxan hər bir çətinliyi iqtisadiyyatını düzgün əsaslar üzərində qurması nəticəsində aradan qaldıracaq".

# Tiqran Avakyan: "Ermənistanda investisiyalara mane olan satanist qruplar oturub"

**"Aşağıdakı məqalədə mən açıq şəkildə göstərmək istəmişəm ki, Ermənistanın timsalında dövlət nəyə görə inkişaf etmir və mövcud vəziyyətdə bundan sonra da inkişaf etməkdən geri qalacaq". SİA xəbər verir ki, bu haqda erməni iş adamı, "Ermənilərin Avropa irsi" layihəsinin rəhbəri Tiqran Avakyan fikirlərini sosial şəbəkə vasitəsi ilə paylaşıb. Onun sözlərinə görə, Yeqvardda fəaliyyəti nəzərdə tutulan neft emalı zavodu açılmayacaq, belə ki, iranlı biznesmen Henrix Der Qukasyan Ermənistanda invensitiyalara mane olan hansısa satanist qrupların oturduğunu deyib.**



Avakyan yazısında bildirir ki, bitum və müxtəlif texniki yağlar istehsal edəcək zavodun tikintisi üçün icazə hələ inqilabdan ("Məxməri inqilabı" nəzərdə tutur-R.R.) əvvəl hakimiyyət tərəfindən verilmişdi. SİTAT: "Lakin yaxınlıqda meyvə bağları olan yerli biznesmenlərlə və evlərin sakinləri ilə problemlər başladı. Meyvə bağlarının sahibləri işlərin dayandırılmasını, ya da bağların alınmasını tələb etdilər. Henrix Der Qukasyan bəyan edirdi ki, zavod Yeqvardın sənaye zonasında yerləşir və heç bir tullantı olmadan ən müasir avadanlıqlardan istifadə edəcək".

Avakyan həmçinin yazıb ki, yerli sakinlər evlərinə görə biznesmendən 200 min dollar pul tələb edirdilər və o da bazar qiymətindən 5, 10 dəfə artıq idi. SİTAT: "Biznesmen bəyan etdi ki, artıq bu işə 23 milyon dollar yatırım edib, planda isə 30 milyon dollar idi. İş baş tutsaydı 250 min dram məvaciblə 300 iş yeri açılacaqdı".

Avakyan qeyd edib ki, bundan sonra Der Qukasyan bir daha zavod söhbətinə qayıtmayacağını bildirib və hər şeyi Allahın hökmünə buraxıb. SİTAT: "Bir erməni olaraq mən vətənim üçün bacardığım hər şeyi etdim, lakin təəssüf ki, alınmadı və indi mən anlayıram ki, bu, baş tutmamalı idi.

O, eyni zamanda xatırladıb ki, iranlı erməni biznesmeninin İranda, BƏƏ və s. ölkələrdə neft emalı zavodları var, həmçinin Qarabağa (işğal vaxtı-R.R.) milyonlarla dollar pul ayırıb.

***Rövşən RƏSULOV***

# Paşinyanın taleyi artıq həll olunub?

"Ermənistanda mitinqlər başlananda belə bir ümid vardı ki, bu, artıq Paşinyanın sonudur və bununla da onun siyasi karyerasına bir nöqtə qoyulacaq. Amma zaman göstərdi ki, Paşinyanın arxasında dayanan hər hansı qüvvələr var. Xüsusilə də xarici qüvvələr. Hazırda Rusiya Paşinyanı dəstəkləyir, çünki onun hakimiyyətdə qalması Rusiyanın maraqlarına cavab verir". Bunu SİA-ya açıqlamasında politoloq Fikrət Sadıqov deyib.



Politoloqun sözlərinə görə, Paşinyan üçtərəfli sənədə imza atıb və həmin sənədin icrasını axıra qədər çatdırmalıdır: "Digər tərəfdən görünür hələ Ermənistanda müxalifət mücərrəd anlayışdır, konkret bir şəxs olmalıdır ve bu şəxs həm cəmiyyət tərəfindən, həm də siyasi qüvvələr tərəfindən onları dəstəkləyən xarici qüvvələrdən asılıdır. Görünür belə bir şəxs hələ axtarışdadır. Biz onu da müşahidə edirik ki, Paşinyana qarşı mitinqlərdə kütləvilik artıq əvvəlki kimi müşahidə olunmur. Ona qarşı çıxış edənlər başa düşürlər ki, Paşinyanı dəstəkləyən xarici qüvvələr var".

F.Sadıqov vurğulayıb ki, bəlkə də müxalif qüvvələrə, hələlik gözləmələri barədə bildirilib: "Yəni, vəziyyət müəyyən nöqtəyə gəlib çatmalıdır. Ondan sonra müxalifətdən kimsə baş nazir ola və yaxud növbədənkənar parlament seçkiləri təşkil oluna bilər. Bunun nəticəsində də hansısa bir müxalif siyasətçi Paşinyanın postuna seçilə bilər. Bu, reallıqdır, lakin bu, heç də o demək deyil ki, Paşinyan uzun müddət hələ hakimiyyətdə qalacaq. Paşinyanın taleyi birmənalı şəkildə həll olunub. Təsadüfi deyil ki, Paşinyanın həyat yoldaşı və övladları Rusiyaya gedərək, oradan sığınacaq istəyib. Artıq Paşinyan və ailəsi özlərinə yer axtarır. Əminəm ki, onlar, sadəcə olaraq, qaçmaq fikrindədirlər və gec-tez Ermənistanı tərk edəcəklər. Əgər getməsələr, siyasi qüvvələr, sadəcə olaraq, onları parçalayacaqlar".

***Aysel Məmmədova***

# Ermənistanda etiraz dalğası böyüyür

***Ermənistan müxalifəti bazar günü İrəvanda baş nazir Nikol Paşinyanın istefası tələbi ilə avtomobil yürüşləri keçirib. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, Arşakunyas prospektindən başlayan yürüş İrəvanın mərkəzi küçələrindən keçərək Respublika Meydanında sona çatıb.***



Məlumatda qeyd olunur ki, bir neçə sürücü fasiləsiz şəkildə siqnal verdiklərinə görə cərimələnib.

Xatırladılır ki, Ermənistandakı daxili siyasi toqquşmalar keçən ilin dekabrından bəri İrəvanda 17 müxalifət partiyasının, habelə mədəniyyət xadimlərinin və ziyalıların nümayəndələri tərəfindən təşkil edilən etiraz aksiyaları keçirilir və Ermənistanın baş naziri Nikol Paşinyanın istefası tələb edilir. Qeyd edilir ki, Paşinyan tərəfindən 9 noyabr tarixində Rusiya və Azərbaycan liderləri ilə Qarabağdakı hərbi əməliyyatların dayandırılması barədə Azərbaycanın xeyrinə əhəmiyyətli ərazi güzəştlərini nəzərdə tutan bir bəyanat imzalaması siyasətçiləri və sıravi vətəndaşları qəzəbləndirib. Müxalifət partiyaları hökumət başçısının istefasını tələb edir və gələcəkdə müvəqqəti baş nazir olaraq öz namizədi Vazgen Manukyanı təklif edərək, erkən parlament seçkilərinin keçirilməsində israrlıdır.

***İnam Hacıyev***

# “Euractiv” nəşri: Naxçıvan dəhlizi Qafqazda nəqliyyat bağlantılarını artıracaq

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi Orxan Bağırovun “ Naxçıvan dəhlizi Qafqazda nəqliyyat bağlantılarını artıracaq” adlı məqaləsi Avropanın nüfuzlu “Euractiv” nəşri tərəfindən çap edilib. Məqalədə əsas diqqət noyabrın 10-da Azərbaycan və Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən imzalanan bəyanatda yer alan Ermənistanın Mehri rayonundan keçərək Naxçıvan Muxtar Respublikasını Azərbaycanın digər rayonları ilə birləşdirəcək dəhlizin Azərbaycan və regionun digər ölkələri üçün, o cümlədən regional nəqliyyat layihələri üçün yaratdığı yeni imkanlara yönəldilib.**




Məqalədə qeyd edilib ki, Naxçıvan dəhlizinin açılması Naxçıvan Muxtar Respublikasının iqtisadi blokadadan azad olunmasına imkan yaradacaq: “Hazırda Naxçıvan ilə hava və quru əlaqəsi İran və ya Türkiyə vasitəsilə mümkündür. Ona görə də Naxçıvanla birbaşa əlaqənin yaranması nəqliyyat vaxtını və xərclərini azaltdığından Azərbaycan və Naxçıvan üçün yeni iqtisadi inkişaf imkanları yaradacaq. Eyni zamanda Naxçıvanın təhlükəsizliyi ilə bağlı narahatlıqlar da aradan qalxacaq”.

Müəllif bildirir ki, Naxçıvan dəhlizi eyni zamanda regional ölkələr üçün yeni imkanlar yaradacaq və bu koridordan istifadə etməklə Türkiyə İran və Gürcüstan yollarından istifadə etməməklə Azərbaycana birbaşa çıxış əldə edəcək. “Türkiyə ilə Azərbaycanı birləşdirən Bakı-Tbilisi-Qars (BTQ) dəmiryolu ilə müqayisədə Naxçıvan dəhlizindən keçən yol 340 km daha qısa olacaq. Bu da nəqliyyat məsafəsini və xərcləri azaltmaqla Türkiyə və Azərbaycan arasında ikitərəfli ticarət əlaqələrinin inkişafına imkan yaradacaq. Dəhliz eyni zamanda Azərbaycanla Türkiyə arasında turizm əlaqələrinin inkişafına da səbəb olacaq”, - deyə Orxan Bağırov qeyd edir.

Bildirilir ki, Naxçıvan dəhlizinin yaradılması regionun digər ölkələri ilə alternativ quru yolunun açılmasına imkan yaratdığından Rusiya üçün də faydalı olacaq. Belə ki, Rusiyanın dəmiryol şəbəkəsi Azərbaycanın dəmiryolları ilə əlaqəli olduğundan Rusiyadan gələn qatarlar Naxçıvan dəhlizinə çataraq ordan asanlıqla İran, Türkiyə və Ermənistana gedən xətlərə birləşdiriləcək: “Əgər Ermənistan sülhə yönələn siyasətə və əməkdaşlığa üstünlük verərsə, o zaman Naxçıvan dəhlizindən o da faydalana bilər. Bu dəhlizdən istifadə etməklə Ermənistan özünün iqtisadi blokadasına son qoya bilər, regional nəqliyyat layihələrinə qoşula bilər və ən əsası Avrasiya İqtisadi Birliyinin (AİB) bazarlarına çıxış əldə edə bilər”. Daha ətraflı: https://www.euractiv.com/section/azerbaijan-/opinion/the-nakhchivan-corridor-will-boost-connectivity-in-caucasus/

# “Bu təlimlər son dövrün ən böyük hərbi təlimlərindən biri olacaq”

***“1-12 fevral tarixlərində Türkiyənin Qars vilayətində qardaş ölkənin silahlı qüvvələri ilə birgə ortaq hərbi təlimlər keçiriləcək. Bu təlimlər son dövrün ən böyük hərbi təlimlərindən biri olacaq. Bu barədə məlumat yayan Türkiyə Müdafiə nazirliyi - “Bir millət, iki dövlət” anlayışımızla “bir ürək, bir bilək, bir yumruq” kimi birləşərək, fəaliyyətimizə davam edəcəyik!” sözlərini məlumatda qeyd edib”. Bunu “Səs” qəzetinə açıqlamasında Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyinin sədri Anar Xəlilov deyib.***



Onun sözlərinə görə, 44 günlük Vətən Müharibəsində Azərbaycana mənəvi dəstək verən qardaş Türkiyə eyni zamanda, Zəfər Qələbəmizdən sonra da siyasi dəstəyini də davam etdirir: “Hərbi sahədə qardaş ölkələr arasında uzun illərdir ki, əməkdaşlıq yüksək səviyyədə aparılır. Fevralın ilk ongünlüyündə nəzərdə tutulan bu hərbi təlimlər ilk deyil. Ötən illərdə də birgə təlimlər keçirilmişdir. Ötən il Naxçıvanda birgə böyük hərbi təlimlər də bu sıradadır. Eyni zamanda, hərbi hava qüvvələrinin birgə təlimləri də müxtəlif bölgələrdə keçirilmişdi. Hər iki qardaş ölkə öz suveren hüquqlarından istifadə edərək birgə təlimlər həyata keçirir. Bu hərbi təlimlər heç bir dövlətə qarşı deyil sadəcə peşəkarlığın artırılmasına, müdafiə qabiliyyətinin yüksəldilməsinə xidmət edir. Lakin hər dəfə bu cür hərbi təlimlərin keçirilməsi zamanı biz Ermənistanın və onun havadarlarının yersiz reaksiyalarını müşahidə edirik. Bu reaksiyalar, əslində, başa düşüləndi. Uzun illər havadarlarının dəstəyi ilə Azərbaycan torpaqlarını işğalda saxlamış Ermənistandan ayrı bir mövqe də gözləmək olmazdı. Ermənistan güclü Türkiyə ordusu Azərbaycanın birgə hərbi təlimlərindən xoflanırdı”.

A.Xəlilov onu da bildirdi ki, Azərbaycanda aparılan hərbi islahatlar, müasir silahlanma, döyüş qabiliyyətinin daim artırılması onsuz da ermənləri narahat edirdi: “Təlimlərdə isə NATO üzvü olan Türkiyə ordusunun gücü və peşəkarlığının, təcrübəsinin Azərbaycan ordusu tərəfindən öyrənilməsi xüsusi olaraq erməniləri narahat edirdi. Bundan əlavə Türkiyə bu gün regionun ən güclü dövlətlərindən biri olaraq Azərbaycanın təbii strateji müttəfiqidir. Bütün bunlar Ermənistanın faşist ideologiyasına xidmət edən siyasi dairələrini narahat edirdi. Bu gün artıq Azərbaycan ordusu öz fateh Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızı mənfur düşməndən azad edib. Havadarlarının dəstəyinə baxmayaraq ermənilər rüsvayçı məğlubiyyətə uğrayıb. İki qardaş ölkənin birgə təliminə ermənilərin verdiyi reaksiyanı bir neçə məqam ilə izah etmək olar. Başlıca məqam odur ki, erməni siyasilər xalqa və beynəlxalq aləmə car çəkirlər ki, guya Türkiyə Silahlı qüvvələri Azərbayca ordusu ilə birgə torpaqlarımızın azad olunmasında iştirak edib. Əslində isə, bütün dünyaya məlumdur ki, Türkiyə yalnız öz mənəvi dəstəyini göstərib. Torpaqlarımızı birmənalı şəkildə öz müzəffər ordumuz azad edib. Məhz buna görə də, ermənilər növbəti birgə təlimə qarşı hay küylü reaksiya verərək məğlubiyyətlərinə qarşı xalqa təsəlli verməyə çalışır, Beynəlxalq aləmdən guya təklənmiş obrazı yaratmaqla havadar axtarır. Ancaq ermənilərin bu hərəkətləri “suda boğulan insanın saman çöpündən yapışması” məsəlini xatırladır. Əslində, Azərbaycan ordusu özünə güvənərək torpaqlarımızı düşməndən azad etdi. Ermənilərin isə havadarlarının sayı-hesabı yoxdur. Sonda da elə yenə havadarı köməyinə gəldi... Allah şəhidlərimizə rəhmət eləsin! Tanrı iki qardaş ölkəni qorusun. Qarabağ Azərbaycandır!”

***Gülyana***

# Siyavuş Aslanın oğlu xəstəxanaya yerləşdirilib



Xəbər verdiyimiz kimi, mərhum Xalq artisti Siyavuş Aslanın oğlu Çingiz küçədə qaldığını deyib. SİA-nın məlumatına görə, o, 3 il sığınacaqda qaldığını, artıq ona icazə verilmədiyini söyləyib. Küçədə yatan Çingiz xəstəxanaya yerləşdirilib. 61 yaşlı kişi 20 gün müalicə olunacaq. Çingiz Respublika Narkoloji Mərkəzində qalır.

# Ermənistan XİN-in uydurma bəyanatı: sənədlər nə deyir?



Ermənistan Xarici İşlər Nazirliyinin guya 1990-cı ilin yanvarında Bakıda ermənilərə qarşı qırğın törədilməsinə dair 2021-ci il 13 yanvar tarixli əsassız bəyanatına Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin tutarlı cavabı məlumdur. Buraya Ermənistan tərəfindən 1918-1920-ci illərdə aborigen azərbaycanlı əhalinin kütləvi surətdə məhv edilməsinə, vəhşicəsinə deportasiyasına və digər məsələlərə dair çoxlu təkzibedilməz faktları da əlavə etmək olar. Ermənistan XİN-nin bəyanatı başdan-başa uydurmadır. Sənədlər sübut edir ki, 1988-ci ilin fevralında Sumqayıtda olduğu kimi, 1990-cı ilin yanvarında Bakıda də törədilmiş hadisələr üçün məsuliyyət sovet xüsusi xidmət orqanları ilə yanaşı, erməni kilsəsi və təşkilatlarının üzərinə düşür. Bu fikirləri “İki sahil”ə açıqlamasında Milli Məclisin deputatı, professor Musa Qasımlı deyib.

Deputat bildirib: “Bakı, Moskva və Ankarada nəşr olunmuş monoqrafiyamda istifadə etdiyim ən mötəbər arxiv sənədi təsdiq edir ki, 1990-cı ilin yanvarında Bakıda baş vermiş təxribatda erməni kilsəsinin bilavasitə iştirakı və əli olub. Sənəddə yazılır ki, Bakıdakı erməni kilsəsinin dyakonu (aşağı rütbəli keşiş) S.S.Davityan 1988-ci il martın 8-10-da Eçmiədzinə gedərək bütün ermənilərin katolikosu I Vazgenin qəbulunda olmuş, sonra isə ieoromonaxlar İsaxanyan, Mkrtıçyan və dyakon Matevosyanla görüşmüşdü. Söhbət zamanı Bakı və Sumqayıtdakı şəraitlə maraqlanan, Dağlıq Qarabağ məsələsində Bakı ermənilərinin bitərəf mövqe tutmasının səbəblərinə dair suallar verən Matevosyan bildirmişdi: “Onlar böyük işlər görməyə qadir deyillər, böyük işlər böyük qurbanlar tələb edir, onlar isə qorxaqdırlar”. S.Davityan cavabında demişdi ki, Ermənistan əhalisinin çıxışları Bakı ermənilərinin vəziyyətinə mənfi təsir edə bilər. Bu zaman kilsə xadimləri soyuqqanlılıqla belə söyləmişdilər: “Burada qorxulu heç nə yoxdur, onları (Bakı ermənilərini nəzərdə tutulur) qurban vermək olar”.

Erməni kilsə xadimlərinin söylədikləri onların iki xalq arasında sülh yaratmaqdan nə qədər uzaq olduqlarını, düşmənçiliyi, əsassız ərazi iddialarını qızışdırdıqları, bu istiqamətdə qanlı əməllər törətməyə hazır olduqlarını və orada iştirak etdiklərini göstərirdi. Bununla əslində xristianlığa daha bir silinməz ləkə vururdular. Ermənistan XİN-in bəyanatı isə bir daha göstərir ki, dövlət siyasətinə çevrilən həmin ənənəvi fəaliyyətlər 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar tarixli üçtərəfli bəyanatlardan sonra da davam etdirilir və düşmənçiliyi qızışdırmağa yönəldilib.

# Vazgen Manukyan: Biz bütün sahələrdə məğlub olmuş dövlətik



“İki sahil” “ArmInfo” ya istinadən bildirir ki, Ermənistanın keçmiş müdafiə naziri Vazgen Manukyan Gümrü və Vanadzor şəhərinin sakinləri ilə görüşündə ölkənin çətin iqtisadi vəziyyətdə olduğunu diqqətə çatdırıb. O, görüş zamanı Ermənistanın əhəmiyyətli maddi itkilər verdiyini və ən əsası ölkənin hazırda dəhşətli vəziyyətdə olduğunu söyləyib. Vazgen Manukyan deyib: “Qaçqınların mənzil məsələsini həll etmək lazımdır, ölən hərbçilərin qohumlarına müavinət verilməlidir, döyüş əməliyyatları zamanı əlil olmuş hərbçilərin dövlət köməyinə ehtiyacı var. Hazırda çətin iqtisadi vəziyyətdə olduğumuz üçün dövlət borcunu artırmağın vaxtı deyil. Ancaq xarici investorların köməyinə inanmamalıyıq. Erməni diasporu Ermənistana kömək edə bilər. Ancaq hazırkı hökumətin dövründə heç kim Ermənistana kömək etməyəcəkdir, çünki dünyanın hər yerindən ermənilər tərəfindən toplanan “Hayastan” fondundan alınan pullar belə dövlət büdcəsinə köçürülmüşdür. Paşinyanın dövründə Ermənistan sərmayə almayacaq, bu, bir həqiqətdir. Biz bütün sahələrdə məğlub olmuş dövlətik” söyləyib.

Manukyan daha sonra bildirib: “Ermənistanın indiki baş naziri milli maraqlarımıza xəyanət etdi. Müharibədə 4500-dən çox insan öldü, minlərlə gənc itkin düşdü, minlərlə əlilimiz var. Ordumuz məhv edildi. 100.000 hektar əkin sahəsini, 315.000 hektar otlaq sahəsini, 15 iri mədəni və milyard dollar dəyərində silahlarımızı itirdik. İndi Ermənistanın maraqlarına xidmət edəcək bir hökumət yaratmaq lazımdır. Paşinyan istefa versə müharibə yenidən davam etməyəcək, ancaq yeni hökumət Ermənistanın maraqlarını tapdalamağa imkan verməyəcək.”

***Könül Əliyeva***

# Qələbəmizin rəmzi dəmir yumruq idisə, artıq bizdə qılınc da var!



**Lider o şəxsiyyətdir ki, ona etimad göstərmiş xalqın maraqlarını bütün imkanları ilə müdafiə edir, reallaşdırır, cəmiyyətin enerjisinin səfərbər edilməsilə insanların taleyində əhəmiyyətli faktora çevrilir. Ötən 17 il ərzində İlham Əliyev atdığı bütün addımları ilə hər bir azərbaycanlının Prezidenti olduğunu isbatlayıb. Təbii fəlakətlər və müharibə zamanı çətin vəziyyətə düşmüş vətəndaşlara yardım edən, problemlərinin həllinə köməklik göstərən Prezident İlham Əliyev hər addımı ilə**

Tariximizin ən böyük xilaskarlıq missiyasını isə Ulu Öndərin davamçısı, yeni dövrün yeni rəhbəri cənab İlham Əliyev yerinə yetirdi! Ulu Öndərimizin vəsiyyətlərində dediyi kimi, Onun yarımçıq qalmış işlərini başa çatdırmaqla, Azərbaycanı müasir və qüdrətli dövlətə çevirməklə, xalqın ən müqəddəs arzusunu uğurla gerçəkləşdirməklə yerinə yetirir!

Bəli, bugün Azərbaycan xalqı, bütün dünya da şahiddir ki, Azərbaycan xalqının etimadı əsasında düz 17 ildir ki, ölkəyə rəhbərlik edən Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin bütün ümüdlərini reallaşdıraraq hər bir azərbaycanlının Prezidenti olduğunu bir daha göstərməkdədir. Bu Azərbaycan Prezidenti İlham Əliyev cənablarının apardığı dəmir yumruğunun nəticəsidir.

"BİZİM QƏLƏBƏNİN RƏMZİ DƏMİR YUMRUQ İDİ, ARTIQ BİZDƏ QILINC VAR". Bu fikri dövlət başçımız İlham Əliyev ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malikin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşü zamanı bildirib.

Göründüyü kimi, 30 illik Qarabağımızın həsrətinə 44 gün ərzində davam edən Vətən Müharibəsinə, məhz Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənablarının möhkəm, diplomatik siyasəti - dəmir siyasəti ilə nail olduqsa, bu gün artıq bizdə qarşısında tab gətirə bilməyən qılıncımız da var!. Bütün bu uğurlara, məhz dövlət başçımızın Ulu Öndərimiz Heydər Əliyev siyasəti, ata vəsiyyəti ilə getməsidir.

Ata vəsiyyətini reallaşdıran xalqın PRZİDENTİ Ulu Öndər Heydər Əliyevin "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", - vəsiyyətini reallaşdıran Prezident İlham Əliyev: "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm", - deyərək son 17 illik Prezidentlik fəaliyyətinin nəticəsidir ki, son 30 il ərzində həsrətində olduğumuz Qarabağa, haqq və şərəf işimiz olan, Azərbaycan Respublikamızın suverenliyi və ərazi bütövlüyümüzə və nəhayət Qələbə Zəfərimizə nail olduq!

"Şuşasız Qarabağ, Qarabağsız Şuşa yoxdur" deyən Ulu Öndər Heydər Əliyevin bu arzusunu da bu gün Prezident İlham Əliyev "Şuşasız işimiz yarımçıq qalar" deyərək reallaşdırdı: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!".

Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciətində Şuşanın işğaldan azad edilməsinin əhəmiyyətindən danışarkən dediyi fikirlər tariximizə əbədi olaraq yazıldı: "Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk! Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir!".

Budur, Azərbaycan Prezidenti, Ali Baş Komandanımızın diplomatik siyasəti! Budur, xalqının Prezidenti olmaq! Budur, Liderlik missiyası!

Bu gün bütün Azərbaycan xalqı, bütün türk dünyası fəxr edir, sevinir. Çünki tarixi qələbəmizi reallaşdıran, dövlətimizi daha firavan gələcəyə aparan Prezidentimiz, Ali Baş Komandanımızın dəmir yumruq siyasətinin nəticəsidir ki, artıq bizdə bu gün qılınc da var! Qarabağ Azərbaycandır!

***ZƏRİFƏ QULİYEVA,***
***YAP Qadınlar Şurasının İdarə Heyətinin üzvü, "Modern ailə və inkişaf" İctimai Birliyinin sədri***

## Prezidentin Şuşa səfərinə dair müstəsna iki tezis



"Prezidentimizin Şuşaya səfəri azad edilmiş digər Azərbaycan rayonlarına və şəhərlərinə səfərlərə bənzəməz. Şuşaya indiki səfər bundan sonrakı illərdə Prezidentin bu şəhərə şübhəsiz ki, edəcəyi növbəti səfərlərə də bənzəməz". SİA xəbər verir ki, bunu açıqlamasında "Bakı Xəbər" qəzetinin baş redaktoru, siyasi şərhçi Aydın Quliyev deyib. Ekspertin sözlərinə görə, əvvala, Qacarlardan, 1805-ci ildə məşhur rus generalı Sisianovdan, ruslardan, qəsbkar ermənilərdən üzü bəri Prezident İlham Əliyev Şuşaya legitim, yəni öz torpağı kimi ayaq basmış, dünyanın qanuni tanıdığı ilk müstəqil süveren dövlət başçısıdır: "Şuşaya Köçəryan, Sarqsyan, Paşinyan da gəlsə də onların heç birinin gəlişi dünyanın nəzərində legitim ayaqbasma hadisəsi ola bilmədi".

A.Quliyev vurğulayıb ki, ikinci, Azərbaycan Prezidentinin Şuşaya legitim gəlişi qəti sübut etdi ki, müstəqil Azərbaycanda keçmiş SSRİ-i dövründəki DQMV-nın hüdudlarında hansısa bir inzibatı ərazi vahidi daha heç vaxt olmayacaq".

## Rusiyada "uşaqpulu" ilə ev almaq olacaq




Rusiyada 2020-ci ildən etibarən ilk uşaq üçün də "Analıq kapitalı" təyin olundu, hazırda indeksləşdirmə nəzərə alınmaqla ödəniş məbləği 484 min rubla (11,2 min manat) qədər böyüyüb. Əvvəllər analıq kapitalı 2 və ya daha çox uşağı olan ailələrlə məhdudlaşırdı. 2021-ci ildə Analıq (ailə) kapitalı dövlət proqramı genişləndirilib. Kapitalın ölçüsü indeksləşdirilir və hazırda 483,8 min rubl təşkil edir. 2-ci uşağın doğulması üçün ödənişlərin həcmi də artırılıb. Belə ki, 2-ci uşaq doğulduqda, valideynlər ilk uşaq üçün vəsait almışsa, 155,5 min rubluq (3600 manat) əlavə bir ödəniş verilir. Yalnız 2 uşaq üçün 640 min rubl (15 min manata yaxın) əldə edə bilərsiniz. Eyni məbləğ, ailənin əvvəllər "ana kapitalı" almaq hüququ olmadığı təqdirdə, 3-cü və 2020-ci ildən etibarən doğulan və ya övladlığa götürülən hər bir uşağa aiddir.

3-cü uşaq doğulduqda, ipoteka krediti ödəmək üçün dövlət 450 min rubl (10 min manatdan çox) təmin edəcəkdir. Beləliklə, 3 uşağı olan ailələrin mənzil problemlərinin həllinə 1 milyon rubldan (23,2 min manatdan) çox sərmayə yatırılacaq. Sertifikat uşaq doğulduqdan dərhal sonra ilkin ipoteka ödənişi üçün istifadə edilə bilər.

Analıq kapitalı sertifikatının istifadəsi məhduddur. Sərmayə bütövlükdə nağdlaşdırıla bilməz, ancaq yaşayış minimumundan aşağı gəliri olan ailələrə aylıq ödənişlər etmək, həmçinin uşaqların təhsilinə, əlil uşaqlar üçün mallara və xidmətlərə və ya gələcək (maliyyələşdirilən) ananın təqaüdünə xərclənə bilər.

Ev alarkən bu fonddan istifadə üçün əsas şərt uşaqlara əldə edilən daşınmaz əmlakdan pay verməkdir. Buna görə, valideyn sertifikatı aldıqdan sonra mənzili bütün ailə üzvlərinin - yəni valideynlərin və uşaqların ortaq mülkiyyətində qeydiyyata götürmək üçün bir notariat vəzifəsi götürür. Bu ipoteka yükünün aradan qaldırılmasından sonra 6 ay ərzində edilməlidir.

Böyük şəhərlərdə subsidiya 1 otaqlı mənzilin 33 faizini, 2 otaqlı mənzilin qiymətinin 22 faizini və 3 otaqlı mənzilin qiymətinin 17 faizini əhatə edir. Moskva, Vladivostok, Soçi və Sankt-Peterburqda subsidiyaların həcmi 1 otaqlı ev üçün kifayət deyil, ancaq kiçik şəhərlərdə matkapital bir mənzilin dəyərini tam ödəməyə imkan verir.

*Elçin Bayramlı*

# Yaxın aylarda daha 4 müasir reabilitasiya və sosial xidmət müəssisəsi açılacaq




***Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq əsas sosial hədəflər möhtəşəm Zəfərimizlə başa çatan Vətən müharibəsi şəhidlərinin ailələrinin, qazilərimizin sosial dəstəklə, yaralanmış hərbçilərin tibbi-sosial reabilitasiya xidmətləri, müasir protezlərlə təmin olunmasıdır. AZƏRTAC xəbər verir ki, bunu əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov ötən il sosial sahədə görülən işlərə və 2021-ci ilin sosial hədəflərinə dair keçirilən mətbuat konfransında bildirib.***

Nazir müavini postmüharibə dövründə 11 mindən çox şəhid ailəsi üzvünün, qazinin, müharibədən zərər çəkən şəxsin bu dəstəklə əhatə olunduğunu qeyd edib. O cümlədən 2650 şəhidin 6500 ailə üzvünə sosial ödənişlərin təyin edildiyini, eləcə də qeyd edilən kateqoriyalardan olan şəxslərin aktiv məşğulluq proqramlarına cəlb olunduğunu, onlara sosial-psixoloji dəstək və reabilitasiya xidmətləri göstərildiyini diqqətə çatdırıb.

O, son bir ildə daha 1500 şəhid ailəsi və müharibə ilə əlaqədar əlilliyi olan şəxsin mənzil və fərdi evlə, 400 müharibə əlilinin avtomobillə təmin edildiyini deyib. İndiyədək bu kateqoriyalardan olanlara 9100-dən çox mənzil və fərdi evin, 7200-dən çox avtomobilin verildiyini qeyd edib. Keçmiş köçkünlər üçün tikilmiş mənzillərin Prezident İlham Əliyevin göstərişi ilə şəhid ailələrinə verilməsi üçün həmin mənzillərin nazirliyin balansına verilməsi prosesinin bitməkdə olduğunu bildirib. Bu yeni mühüm proqramın şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin evlə təminatında növbəti ciddi irəliləyişə imkan verəcəyini deyib.

A.Kərimov diqqətə çatdırıb ki, son iki ildə 10-dan çox bölgədə, o cümlədən 2020-ci ildə 6 bölgədə (Lənkəran, Xaçmaz, Şirvan, Şəki, Sumqayıt, Göygöl) müasir reabilitasiya və sosial xidmət müəssisələri açılıb. Yaxın aylarda 4 müasir reabilitasiya və sosial xidmət müəssisəsi də açılacaq. Ümumilikdə son illər qurulan müasir reabilitasiya sistemi yaralanmış qazilərimizin səmərəli tibbi-sosial reabilitasiya xidmətləri ilə əhatə olunmasına şərait yaradıb. Eyni zamanda, yaralanmış qazilərimizin reabilitasiya vasitələri, xüsusilə də müasir, yüksək texnologiyalı protezlərlə təminatı istiqamətində ardıcıl işlər aparılır. Son bir ayda onlara 530 reabilitasiya vasitəsi verilib, həmçinin 6 qazi yüksək texnologiyalı 8 protezlə təmin olunub, hazırda da bu sahədə işlər davam edir.

# Moskva görüşü - Azərbaycanın növbəti diplomatik qələbəsidir

**Dünyanın müharibə və sülh tarixinin təcrübəsi göstərir ki, hərb meydanında qalib gələn dövlət xadimləri, adətən, masa arxasında da özlərini qalib aparıblar. Bəzən isə döyüş meydanında qalib gələnlər masa arxasında güzəştə gediblər və ya itiriblər. Ancaq Azərbaycan xalqı böyük qürurlu xalq olduğu kimi, güclü, hərb elminə mükəmməl qalib sərkərdəsi, həm də diplomatik sahədə yüksək səviyyəli zəmanəmizin görkəmli dövlət xadimi İlham Əliyev cənabları son 17 illik Prezidentlik fəaliyyəti bir daha sübut etdi ki, Azərbaycan həm döyüş meydanında, həm də danışıqlar masası arxasında istəyinə nail ola bilir.**



Belə bir fikir də var: "Tarix qalibləri mühakimə etmir, həm də bu qalib haqq işi uğrunda qələbə qazanırsa!". İstər 2020-ci il 10 noyabr üçtərəfli, istərsə də 11 yanvar 2021-ci il tarixli Bəyanatı bir daha bunu təsdiqləyir və kommunikasiyaların bərpası ilə bağlı əks olunmuş müddəaların həyata keçirilməsi mexanizmlərinin formalaşdırılması üçün müvafiq vəzifələri müəyyən edir. Prezident İlham Əliyev cənabları bildirmişdir ki, "Bu gün imzalanmış bəyanat bizim niyyətlərimizə dəlalət edir, ona görə ki, hərbi əməliyyatların dayandırılmasının yekunlarına dair bəyanatın bir bəndi nəqliyyat kommunikasiyalarının bərpasına aid idi"

Qeyd edim ki, 2020-ci il noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidentinin imzaladıqları Bəyanat müzəffər ordumuzun zəfər yürüşü nəticəsində yaranmış reallıqdır. Belə ki, Bəyanatda digər önəmli məqam ondan ibrətdir ki, burada Dağlıq Qarabağa hər hansı statusun verilməsindən söhbət getmir və Azərbaycanın ərazi bütövlüyü tam təmin olunur. Bu, Azərbaycanın tam və şərtsiz qələbəsinin əyani sübutudur. Məhz bu ortaq bəyanatda əksini tapan əməkdaşlıq məsələləri rəsmi Bakının şərtləri çərçivəsində qəbul olunub və dünya ictimaiyyəti bir daha şahidi oldu ki, Azərbaycan Qarabağ məsələsində söz sahibidir. Dövlət başçımızın görüşdə səsləndirdiyi fikirlər də göstərdi ki, Azərbaycan uzunmüddətli sülhün, əməkdaşlığın, iqtisadi inkişafa aparan layihələrin tərəfdarıdır. Bu görüşün nəticələri beynəlxalq aləmdə də böyük səbirsizliklə gözlənilirdi. Çünki Azərbaycan bu görüşə qalib, Ermənistan isə məğlub kimi gedirdi. Bu Bəyanatla bütün dünya şahidi oldu ki, Azərbaycan haqq, ədalətə gedən yolun qalibidir.

Növbəti 11 yanvar Bəyanatı - Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüşün keçirilməsi, görüşdən sonra üç ölkə rəhbərinin imzaladığı birgə Bəyanat bir daha diplomatiyamızın növbəti qələbəsidir. Məhz bu ortaq bəyanatda əksini tapan əməkdaşlıq məsələləri rəsmi Bakının şərtləri çərçivəsində qəbul olunub və dünya ictimaiyyəti bir daha şahidi oldu ki, Azərbaycan Qarabağ məsələsində söz sahibidir. Dövlət başçımızın görüşdə səsləndirdiyi fikirlər də göstərdi ki, Azərbaycan uzunmüddətli sülhün, əməkdaşlığın, iqtisadi inkişafa aparan layihələrin tərəfdarıdır. Bu görüşün nəticələri beynəlxalq aləmdə də böyük səbirsizliklə gözlənilirdi. Çünki Azərbaycan bu görüşə qalib, Ermənistan isə məğlub kimi gedirdi.

Dövlətimizin başçısı görüşdən sonra mətbuata bəyanatla çıxışında da 10 noyabr tarixli birgə Bəyanatın uğurla həyata keçirildiyini diqqətə çatdırdı və bu bəyanatın bəndlərinin çox hissəsinin yerinə yetirildiyini bildirdi. Rusiya sülhməramlı missiyasının öz işini səmərəli şəkildə yerinə yetirdiyini və iki ay ərzində kiçik insidentlər istisna olmaqla, narahatlıq üçün ciddi əsas olmadığını deyən Prezident İlham Əliyev qeyd etdi ki, bütün bunlar belə əminlik yaradır ki, Vladimir Vladimiroviçin dediyi kimi, Dağlıq Qarabağ münaqişəsi keçmişdə qalıb və biz gələcək barədə, qonşular kimi birlikdə necə yaşamaq, nəqliyyat arteriyalarının açılması məsələlərini həll etməyə necə çalışmaq və gələcəkdə regional sabitliyi və təhlükəsizliyi möhkəmlətmək haqqında düşünməliyik.

Təəssüf doğuran odur ki, Ermənistanın baş naziri Nikol Paşinyan: "Təəssüf ki, bu münaqişə hələ nizamlanmayıb. Münaqişə qalır. Əlbəttə, biz atəşkəs rejimini təmin etməyə nail olmuşuq, lakin hələ həll edilməli olan çox məsələ qalır. Bu məsələlərdən biri Dağlıq Qarabağın statusu məsələsidir" deməklə xəstə təfəkkürlü Paşinyan sanki 2020-ci il noyabrın 10-da şəxsən imzaladığı Bəyanatdan xəbərsizdir. Və Paşinyanın "Əlbəttə, Ermənistan ATƏT-in Minsk qrupunun həmsədrliyi çərçivəsində, o cümlədən bu məsələyə dair danışıqları davam etdirməyə hazırdır"-deməsi, doğurdan da bir daha erməni xalqına adamın yazığı gəlir ki, belə bir səviyyəsiz, düşüncəsiz onlara rəhbərlik edir. Çünki Paşinyan da, dünya ictimaiyyəti də bir daha şahid oldu ki, artıq münaqişə öz həllini tapıb və bundan sonra ATƏT-in Minsk qrupunun vasitəçiliyinə heç bir ehtiyac yoxdur. Və Paşinyanın hələ də Minsk qrupunun hər üç həmsədrinin iştirakı ilə danışıqları canlandırmağa çalışmasının mənası yoxdur. Qeyd edək ki, bunu Rusiya Prezidenti Vladimir Putin mətbuata bəyanatla çıxışı zamanı da bildirdi: "Bugünkü görüşü son dərəcə vacib və faydalı hesab edirəm, çünki razılığa gələ bildik və bölgədəki vəziyyətin inkişafına dair birgə Bəyanat imzaladıq".

Göründüyü kimi, döyüş meydanından qalib çıxan sərkərdəmiz, Prezident İlham Əliyev bu diplomatik meydanda da Qalib Lider, Nikol Paşinyan isə döyüş meydanında olduğu kimi, masa arxasından da İrəvan isə əliboş qayıtdı.

Qeyd edim ki, imzalanan üçtərəfli Bəyanatda nəzərdə tutulan məsələlər regionun gələcəyinə dair Prezident İlham Əliyev konsepsiyasının üstünlüyünü və həyatiliyini göstərməklə yanaşı, həmçinin bəyanatın bütün maddələri Azərbaycan tərəfinin uğurudur. Ən əsası isə, yeni bəyanat sözsüz ki, regionda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə, bölgənin iqtisadi inkişafına xidmət edəcək. Həmçinin, "Şərq-Qərb" nəqliyyat dəhlizinin tərkib hissəsi kimi "Mehri dəhlizi"nin açılması olacaq ki, bu da, ilk növbədə, Naxçıvana və sonra da qardaş Türkiyəyə dəmir yolunun açılması deməkdir. Həm də bu kommunikasiya xətləri təkcə Azərbaycan üçün deyil, eyni zamanda, region ölkələrinin hamısı üçün böyük əhəmiyyət kəsb edəcək. Üçtərəfli görüşdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata verdiyi bəyanatda da bu məqamı xüsusi vurğulayaraq demişdir: "Bu gün imzalanmış bəyanat bizim niyyətlərimizə dəlalət edir, ona görə ki, hərbi əməliyyatların dayandırılmasının yekunlarına dair bəyanatın bir bəndi nəqliyyat kommunikasiyalarının bərpasına aid idi. Bu sahə regionun inkişafına böyük dinamizm gətirə, təhlükəsizliyi möhkəmləndə bilər. Ona görə ki, nəqliyyat kommunikasiyalarının açılması Azərbaycan, Ermənistan, Rusiya xalqlarının, bizim qonşularımızın mənafelərinə cavab verir. Əminəm ki, qonşu ölkələr də bizim regionda nəqliyyat dəhlizlərinin və nəqliyyat arteriyalarının şaxələndirilmiş şəbəkəsinin yaradılmasına fəal qoşulacaqlar. Biz bundan sonra da qısa müddətdə səmərə verən və nəticəyə yönəlmiş fəaliyyət sahələrini tapmağa çalışmalıyıq". Bir sözlə, Moskva Bəyanatı regional inkişafın müsbət dinamikasını təmin edəcək. Bununla da inamla deyə bilərik ki, Azərbaycan hərb meydanında qazandığı zəfəri diplomatik masada, danışıqlar prosesində davam etdirir.

*MƏŞHUR MƏMMƏDOV,*
*Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü*

## Milli Mətbuatımızın inkişafında keyfiyyətcə yeni mərhələ başlanır

***Son zamanlar cəmiyyətdə medianın nüfuzunun artırılması, onun maddi-texniki bazasının yaxşılaşdırılmasına, bir sözlə, müasir çağırışlara vaxtında cavab verən medianın yaradılmasına ehtiyac yarandığı aşkar hiss olunurdu. Mediada müasir texnologiyaların və innovasiyaların tətbiqinin stimullaşdırılması da bu tələblər sırasında idi.***



Respublika Prezidentinin imzaladığı Fərmanda ötən əsrin 90-cı illərində Azərbaycanda dövlət müstəqilliyi bərpa edildikdən sonra müasir medianın formalaşması və inkişafı üçün geniş imkanlar yarandığı qeyd olunmaqla yanaşı, vurğulanır ki, həyata keçirilmiş köklü islahatlar nəticəsində ölkədə senzura, söz və məlumat azadlığını məhdudlaşdıran digər süni maneələr aradan qaldırılıb. Medianın fəaliyyətini tənzimləyən mütərəqqi qanunvericilik bazası formalaşdırılıb, redaksiyaların davamlı inkişafı, onların iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin sərbəst fəaliyyətinin təmin edilməsi məqsədilə ardıcıl tədbirlər görülüb. Fərmanda bildirilir ki, ötən dövr ərzində Azərbaycan mediası özünəməxsus inkişaf yolu keçib, ölkəmizdə və dünyada baş verən hadisələrlə bağlı cəmiyyətin məlumatlandırılması, xalqımızın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü fəaliyyət göstərib. Bununla yanaşı, cəmiyyət həyatının hər bir sahəsini əhatə edən köklü islahatların həyata keçirildiyi, habelə bütün dünyanı əhatə edən vahid informasiya məkanında yeniliklərin intensiv xarakter aldığı, kommunikasiya vasitələrinin sürətlə inkişaf etdiyi, mütərəqqi texnologiyaların, iş metodlarının tətbiq olunduğu müasir dövrdə media sahəsində keyfiyyət dəyişikliklərinə ehtiyac var. Qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğun olaraq modernləşmə, rasionallıq, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi və digər mühüm şərtləri özündə birləşdirən innovativ təkamülün yaratdığı imkanlardan Azərbaycan mediasının daha çox bəhrələnməsi, onun şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan, cəmiyyətin obyektiv və peşəkar şəkildə məlumatlandırılmasına xidmət edən fəaliyyətinin stimullaşdırılması üçün bu sahədə əsaslı islahatlar aparılmasına zərurət yaranıb.

Fərmana əsasən, Azərbaycanda medianın inkişafının dəstəklənməsi, bu sahədə institusional quruculuq işlərinin davam etdirilməsi, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında "Azərbaycan Respublikasının Mediasının İnkişafı Agentliyi" publik hüquqi şəxs yaradılıb. Agentlik Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun hüquqi varisidir. Agentliyin nizamnamə fondu 285405 manat təşkil edir və dövlət büdcəsinin vəsaiti hesabına formalaşır.

Agentliyin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi sədr və 6 üzvdən ibarət Müşahidə Şurası, cari rəhbərliyi isə Prezidentin vəzifəyə təyin və vəzifədən azad etdiyi İcraçı direktor həyata keçirir. Nazirlər Kabinetinə tapşırılıb ki, dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində Agentliyin inzibati bina ilə təmin edilməsi və maddi-texniki təminatı məsələlərini həll etsin.

Mütəxəssislərin fikrincə, Medianın İnkişafı Agentliyinin yaradılması ölkəmizdə medianın inkişafına, qlobal informasiya məkanında baş verən trendlərin, dəyişikliklərin operativ şəkildə izlənməsinə, medianın fəaliyyətini daha çevik və məhsuldar şəkildə yenidən təşkil etməyə imkan verəcək. Fərmanda da qeyd edildiyi kimi, burada söhbət yeni tendensiyaların öyrənilməsindən, medianın fəaliyyətini yeni tələblər əsasında qurmaqdan gedir. Medianın İnkişafı Agentliyinin yaradılması medianın inkişafı ilə bağlı strategiyanın hazırlanması, media ilə bağlı proseslərə çevik reaksiya verilməsi baxımından da önəmlidir. Agentliyin nizamnaməsində onlayn media, çap mediası və audiovizual media işinin qurulması və onların inkişafına nail olunması istiqamətində görüləsi işlərin konturları da öz əksini tapıb.

*Könül Məmmədova,*
*YAP Şamaxı rayon təşkilatının şura üzvü, Tərəqqi medallı*

### Naira Zöhrabyan: "Parlamentin gündəliyində yalnız Paşinyanın istefası olmalıdır"

Ermənistan Parlamentinin gündəliyində yalnız bir məsələ olmalıdır, o da baş nazir Nikol Paşinyanın istefası. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bunu "Çiçəklənən Ermənistan" partiyasından millət vəkili Naira Zöhrabyan 18 yanvarda Ermənistanın Parlamentinin iclasında deyib. Onun sözlərinə görə, hazırkı hökumət xalqı səhv yola aparmaq üçün müxtəlif mövzuları gündəmə gətirməyə çalışır. "Hərbi əsirlərlə bağlı suallarımız var. Nikol Paşinyan Moskvaya gedəcəyinə, guya əsas vəzifəsinin də hərbi əsirlərin geri qaytarılması məsələsini müzakirə etmək olacağına söz verdi. Lakin, oraya getdiyi zaman bir də təkrarən Azərbaycan rəhbərinə baş əydi, Sünik vasitəsilə türklərə yol verdi", deyə Zöhrabyan bildirib.



# Alçalanlar və rəzalətə sürüklənənlər

**İndi onların səhv iş gördüyünə və bu səhvin ucbatından ermənilərin qəzəbinə tuş gəldiyinə, onların getməsini tələb etdiyinə Nikol və Annanı kim inandıracaq? Yaxud, kimsə inandıra biləcəkmi? Ölkəsinin müharibə astanasında, dövlətinin təhlükələrlə üz-üzə qaldığı zamanda, taleyüklü məsələlərinin olduğu ərəfədə baş nazir Nikol Paşinyan gedib Qarabağda sərxoş halda çəpik çalıb oynayırdısa, müharibə dönəmində də baş nazirin arvadı gedib döyüş meydanlarında çürbəcür pozlarda şəkil çəkdirir və bununla da bir növ, erməni hərbi personalını ələ salırdısa, bu cütlükdən nə gözləyə bilər erməni toplumu? Həqiqətən də, Ermənistan dövlətinin bağlı, hətta asılı olduğu şəxslərin hərəkətlərini qiymətləndirmək üçün özünü ələ almaq, ədəbi, senzuralı sözləri axtarmaq, tapmaq və istifadə etmək çox çətindir.**

İşğalçı ölkənin birinci şəxsi müharibədən əvvəl hədə dili ilə danışdığı, şərtlər qoyduğu halda, müharibə dönəmində rəzil duruma düşür, acınacaq məğlubiyyətdən yaxa qurtarmaq üçün, dünya dövlətlərinin liderlərinə yalvarmaq məqsədi ilə telefon dəstəyindən əlini buraxmırdı. Çünki, rüsvayçı məğlubiyyətləri fonunda nə axmaqlıq elədiyini çox yaxşı anlamışdı və hərbçilərini mümkün qədər qorumaq, hətta özünü sığortalamaq üçün dəridən qabıqdan çıxırdı. Özü də hansısa diplomatik yolla, danışıqlar yolu ilə deyil, məhz yalvarışları hesabına kömək istəyirdi. Paşinyanın müharibədən əvvəlki tərzi və müharibə dönəmindəki halı hansı simasızlıq dərəcəsinə sığır, bunu təyin etmək bizim üçün çətindir və qoy elə onun mənsub olduğu erməni cəmiyyəti bu simasızlıq səviyyəsini, dərəcəsini özü təyin etsin, çünki, mənsubiyyət özlərinindir axı.

Adam çox çalışır ki, mümkün qədər senzuraya riayət etsin, amma bu sifətsiz, simasızlarla əlaqədar fikir bildirəndə heç cür buna nail olmaq olmur və bu baxımdan oxucular bacardığı qədər buna görə bağışlasın. Məsələ burasındadır ki, insan nə qədər simasız olmalıdır ki, ikicə ay bundan qabaq hansı durumda olduğunu, necə yalvarışlar edərək, ondan-bundan xilas umduğunu unutsun. Bəli, ola bilər ki, söylədiyi yalanlara görə, müharibə dövründə, guya Ermənistanın qələbələr qazandığı barədə daxili auditoriyaya verdiyi yanlış məlumatlara görə, bu ölkə vətəndaşları hələ də eyforiyadadırlar. Niyə və necə məğlub olduqlarını təsəvvür edə, həmçinin qəbul edə bilmirlər. Amma, Nikol və onun yan-yörəsindəkilər, işğalçı ölkənin siyasi-hərbi rəhbərliyi məgər həqiqətlərin nədən ibarət olduğunu, onların acı məğlubiyyətlərinin, uğursuzluqlarının, silahlı qüvvələrinin Azərbaycan Ordusu qarşısında tab gətirə bilmədiyinin və rüsvayçı şəkildə qaçdığının şahidi deyilmi? Elə isə, Cənab Prezident, Ali Baş Komandan tərəfindən lap yerindəcə, "təlxək" adlandırılan bu simasız özünü niyə bu şəkildə aparır? Məsələn, Moskva görüşündə qorxudan və xəcalətdən rəngi qaçan erməni baş nazir, status barədə öz ölkəsində, daxili auditoriyaya hesablanmış olsa belə, mızıldanmağa necə cəsarət və ən əsası üz tapır? Yaxud da, nə qədər simasız olmaq lazımdır ki, müharibə qurtarandan sonra kol-kos içində dovşan kimi gizlənib, xəlvətdə çaqqal kimi diversiya cəhdi edənlər, hansı ki, Azərbaycan əsgəri zərərsizləşdirib, hərbi əsir adlandırılsın? Bu cinayətkarlar müharibə dönəmində yox, müharibədən sonra təxribatla, cinayət əməlləri ilə məşğul olurlarsa, deməli, cinayətkardırlar və Azərbaycan ərazisində yaxalandıqları səbəbilə, ölkəmizin qanunları ilə hüquqi cəzalarını almalıdırlar. Bunu Nikol bilmir, yoxsa, özünü qanmazlığa qoyub? Yaxud, vətəndaşlarının Azərbaycan tərəfindən saxlanılmasını istəmirdisə, niyə axmaqcasına "revanşizm", və ya "intiqam" deyə, yuyulmamış çömçə kimi ortalığa atılan, əslində isə, heç müharibə dönəmində ortalıqda olmayanların cavabını verib, yerində niyə otuzdurmurdu vaxtında? Buna səlahiyyəti çatmırdı, yoxsa cəsarəti? İstənilən halda bu erməni baş nazir dilini qarnına qoymalı və daxili auditoruyanı aldadaraq hakimiyyətini uzatmaqdansa, reallıqları, həqiqətləri öz xalqı qarşısında etiraf etməli, onları da düz yola dəvət etməlidir, azdırmalı yox. Əgər bunu etmirsə, özünü sığortalamaq xatirinə fikir bildirirsə, daha da kütləni qızışdırıb yanlışlığa sürükləyirsə deməli, Paşinyan özü öz xalqını alçaldır, özləri-özlərini rəzalətə sürükləyirlər. Mənsub olduqları xalqı da təhqir etməkdə davam edirlər.

İş orasındadır ki, təhqir etməkdə Nikol heç də tək deyil və onun ailəsi də, şəxsən arvadı Anna Akopyan da ondan geri qalmır. Məsələn, Ermənistanın baş naziri Nikol Paşinyanın həyat yoldaşı Anna Akobyanın və qızlarının "Köhnə Yeni ili" Moskvadakı Puşkin restoranında qeyd etmələri barədə məlumatlar var və işğalçı ölkənin istər mətbuat səhifələrində, istərsə də, sosial şəbəkələrin erməni seqmentində bu faktlar müzakirə olunur. Xatırladaq ki, Mediaport Telegram kanalı bir video yayımlayaraq bu barədə, yeni baş nazir arvadının qızları ilə Rusiya restoranlarının birində öz kefində olduğu barədə məlumat verib. Yayımlanan videoda Annanın avtomobilinin restoranın girişində dayandığı öz əksini tapır. Eləcə də, Akobyanı çox sayda təhlükəsizlik işçisi, habelə Nikol Paşinyanın həyat yoldaşına xidmət edən Rusiyadakı bütün Ermənistan səfirliyinin müşayiət etdiyi də görünür. Qeyd edək ki, bir qədər əvvəl, eyni mənbə, baş nazirin ailəsinin yeni bir mənzil axtarmaq üçün Moskvaya gəldiyini bildirib. Bütün bunlara erməni cəmiyyəti necə reaksiya göstərməli idi? Bəyənməli idimi bu cəmiyyət baş nazir arvadının bu hərəkətlərini? Ermənistanın bu boyda məğlubiyyətinin, acılarının fonunda baş nazir arvadının öz kefində olması normal təzahür hesab oluna bilərmi? Xeyr, olmaz.

Üstəlik, baş nazir arvadının kinikası, sanki, yüksək əhval-ruhiyyədə olduğunu nümayiş etdirən tərzi də burada təəccüb doğurur. O, müharibədə minlərlə erməni döyüşçüsünün öldüyündən, on minlərlə yaralanan, itgin düşən əsgər talelərindən xəbərsizdirmi? Xeyr, xəbərdardır və bu da o deməkdir ki, baş nazirin arvadı dövlətinin, ərinin məğlubiyyətlərinə, ölkə vətəndaşlarının faciələrinə laqeyiddir. Eləcə də bütün bu acılara saymazyana yanaşır. Bu isə ondan xəbər verir ki, baş nazir arvadı da öz əri kimi, öz dövlətini, dövlət başçısını, ölən, zərərçəkən əsgərlərini, valideyin və qohumları olmaqla, onlara görə iztirab çəkən ölkə vətəndaşlarını alçaldır.

Annanın müharibə zamanı qərar vermə prosesinə necə müdaxilə etdiyinə dair kifayət qədər dəlillər var. Deməli, bütün bunlar, müharibədə, ondan əvvəl, müharibə dövründə və ondan sonra baş nazir arvadı tərəfindən edilənlər özü üçün, öz dividentləri üçün bir təşviqat, bir reklam imiş. Üstəlik, başqalarının hesabına əylənmək üçün səbəb nə idi və buna əsas olduğuna özü belə inanırmı?

Ermənistanın baş nazirinin arvadı Moskvada bir mənzil seçir, bəyənir, onu almaq qərarı verir. Maraqlıdır, o bunu nə ilə, hansı vəsaitlərlə satın alır? Hardandır bu qədər vəsait məğlub və səfil durumda olan ölkənin bu baş nazir arvadında? Yaxud, ölkəsinin bu qədər açılarla qarşılaşdığı dönəmdə baş nazir arvadında bu nə əhval-ruhiyyə, bu nə həvəsdir? İndi acılarına görə bəzən Rusiyanı, bəzən Fransanı, bəzən də Qərbi günahkar hesab edən erməni cəmiyyətinə sual oluna bilər ki, siz öz baş nazirinizin arvadından hesab soruşdunuzmu onun bu əməllərinə görə? Soruşuldumu ki, onları alçaldan, rəzalətə sürükləyən günahkar bildikləri ölkələrdir, yoxsa elə bu hökumət başçısının özü və ailəsi? Nikol və Annanın özləri özləri üçün mənzil hədiyyə etmələri bir çox məqamlardan xəbər vermirmi? Suallar çoxdur, amma cavabları da aydındır.





Nikol Paşinyan və arvadı özlərini xalqa hesabatlı hesab etmirlər. Rusiya, Fransa, hətta Azərbaycan Prezidentləri onları hesabat verməyə məcbur edə bilər, ancaq erməni xalqı edə bilmir. Dünya ictimaiyyəti də bunun iki aydan çoxdur ki, şahididir. Şahididir ki, Paşinyan da, onun arvadı da bütün erməni cəmiyyətini sanki barmağına dolayıb və heç hesabat niyyətində belə deyil. Rusiya paytaxtında mənzil alan, sonra da Moskva restoranlarında öz kefində olan Paşinyan ailəsinin halı bunu təsdiq edir.

Əslində, bu hal, nəinki hərhansı bir ölkə vətəndaşı, hətta özünə hörmət edən hər bir erməni üçün ayıb sayılır. Bu faktlar bir daha təsdiq edir ki, öz-özünü alçaldan və rəzalətə sürükləyənlər elə özləridir. Amma, bunu onlara inandıracaq kimsənin bu erməni cəmiyyətində olduğu inandırıcı görünmür. Əks halda, Moskvada almaq istədikləri mənzilə görə erməni xalqının pullarını verməzdilər, erməni cəmiyyəti qarşısında cavab verərdilər.

***İnam Hacıyev***

---

# Lena Nazaryan: "Revanşizm düşüncəsi kənara atılmalıdır"



***Parlamentin vitse-spikeri Dağlıq Qarabağ ərazilərinin hərbi yolla qaytarılması ideyalarını, "revanşizm" deyilən ideyaları geriləmə və zərərli hesab edir. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, parlamentin vitse-spikeri Lena Nazaryan bu barədə "Sputnik Ermənistan"a verdiyi müsahibədə danışıb.***

"Bu gün bir çox mütəxəssis, müxtəlif simalar deyir ki, bir neçə illik dinc həyatdan sonra güclənəcəyik, silahlanacağıq və sonra qələbə payımızın arxasınca gedəcəyik. Bağışlayın, bu düşüncəni regresiv və zərərli hesab edirəm. Ermənistanın bütün qonşuları ilə "uzunmüddətli və ya hətta qalıcı sülh" yaratmağa çalışmalıyıq. Bölgə gec-tez normal simada olmalıdır", deyə Nazaryan bəyan edib.

Azərbaycanın olan Qarabağ ərazilərini hərbi yolla geri qaytarmaq fikrindən imtina etməyin lazım olub-olmadığını soruşduqda da, o müvafiq cavab verib.

"Müharibə istəmirəm. Siyasi proseslər yolu ilə tənzimlənməni istəyirəm. Siyasətə inanıram, mən siyasətçiyəm", deyə Nazaryan vurğulayıb.

Bu qədər insanın həyatına son qoyan müharibədən qaçmaq mümkün olub-olmadığına gəldikdə, vitse-spiker qeyd edib ki, cəmiyyət son 30 ildə aparılan danışıqları, siyasi prosesi araşdırmalıdır.

"Harada və hansı səhvlərin edildiyini anlamaq, dərs almaq lazımdır. Müharibə olmamalı, müasir sivil dünyada bütün məsələlər sülh yolu ilə, danışıqlar yolu ilə həll edilməlidir", deyə vitse-spiker fikirlərini açıqlayıb.

Vitse-spiker, eyni zamanda, müxalifətin ölkənin məğlub liderinin danışıqlar apara bilməyəcəyi iddialarına da münasibət bildirib. Onun fikrincə, xəyallar aləmində, buludlarda gəzmək ölkəsinə heç nə vəd eimir və qalib mövqedə olmaq üçün, ölkəsinin malik olmadığı hansısa imkanlar tələb olunduğunu anlayır.

# Tezliklə ciddi ekoloji böhranla üz-üzə qalacağıq?

ARAŞDIRMA

***Ekoloq:* “Ona görə də, ekoloji sağlamlaşdırma ilə bağlı komleks proqram həyata keçirilməlidir”**




*Yazı Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanıb.*

XXI əsrin ən böyük problemlərindən biri də texnogen inkişafın daha böyük miqyasa çatması və bunun nəticəsində təbiətə təzyiqin yüksək templə artmasının doğurduğu problemlərdir. Başqa sözlə, ekoloji böhranın yaşanmasında antropogen təsirlərin rolu ən yüksək həddə çatıb ki, bu da özünü anormal iqlim şəraitində, təbii fəlakətlərin artmasında və ərzaq məhsulları istehsalının aşağı düşməsində göstərir. Artıq əksər dövlətlər bu nəticələrin aradan qaldırılması üçün böyük qüvvə sərf etməyə məcbur olurlar. Azərbaycan hökuməti də uzun illərdən bəri yığılıb qalmış ekoloji problemlərin həll edilməsi üçün müxtəlif tədbirlər həyata keçirir. Buna baxmayaraq, respublikada ekoloji problemlər öz aktuallığını itirmir. Bəs ölkəmizdə ekoloji problemlərin əsas mənbəyi nədir- qlobal ekoloji proseslər, yoxsa lokal təsirlər? Bu yazıda bu suala cavab tapmağa çalışacağıq.

Hazırda Azərbaycanda əsas ekoloji problemlər bunlardır;

* Su ehtiyatlarının çirkləndirilməsi,
* Sənaye müəssisələri və avtonəqliyyatın atmosferi çirkləndirməsi;
* Kənd təsərrüfatı üçün yararlı torpaqların sıradan çıxması;
* Tullantıların tələb olunan səviyyədə idarə olunmaması;
* Biomüxtəlifliyin, meşələrin, flora və faunanın lazımi qədər qorunmaması.

## Su hövzələrinin çirklənməsi

Respublikanın yerüstü su hövzələrinin isə çirklənmə dərəcəsi son dərəcə yüksəkdir. Əsas təbii su hövzəsi olan Xəzər dənizinə bütün mənbələrdən ildə təxminən 12 mlrd. kub.m çirklənmiş sular axıdılır ki, bunun da 250 mln kub.m-dən çox hissəsi Azərbaycanın payına düşür. Nəticədə Bakı buxtasında 60 mln. kub.m-dən çox çirkləndirici maddələr toplanıb.

Ən böyük çayımız olan Kürün suyunun 74%-i isə Gürcüstan və Ermənistan ərazilərində formalaşır və həddən artıq çirklənməyə məruz qalır. Hesablamalar göstərir ki, Kür çayı hövzəsinə Ermənistandan (Arazla) ildə orta hesabla 300 mln.kub.m, Gürcüstandan 265 mln.kub.m, Azərbaycandan isə 25 mln.kub.m çirklənmiş su atılır və nəticədə Kür çayı suyunun mis, sink, fenol, neft məhsulları və s. zərərli maddələrlə həddən artıq çirklənməsi müşahidə edilir.

Bundan başqa, təmizlənməmiş təsərrüfat-məişət çirkab suları ilə çaya ildə 40 min ton üzvi maddələrin axıdılması oksigenin biokimyəvi istifadəsinin kəskin artmasına səbəb olur. Kür çayında fenolların miqdarı normadan 10 dəfə, karbohidrogen isə 36 dəfə artıqdır.

Kiçik çaylarda da çirklənmə həcmi getdikcə artır. Bəzi kiçik göllər quruyub yoxa çıxır.

## Atmosferin çirklənməsi

Ölkəmizin atmosfer havasının vəziyyətinə gəldikdə isə, onu qeyd etmək lazımdır ki, təxmini hesablamalara görə, hər il sənaye müəssisələri və avtomobil nəqliyyatları tərəfindən atmosfer havasına 1 milyon tondan artıq zərərli maddələr atılır. Bunun yarısı sənaye müəssisələrinin, digər yarısı isə avtonəqliyyat vasitələrinin payına düşür. Bakı şəhərinin atmosfer havasına yarım milyon tondan artıq zərərli maddələr atılır ki, bu tullantıların da təxminən 30 faizi sənaye müəssisələrinin, 70 faizi isə avtonəqliyyat vasitələrinin payına düşür.



Qeyd etmək lazımdır ki, atmosfer havasını çirkləndirən əsas mənbələr neftçıxarma, neft emalı, neft-kimya və energetika müəssisələri və avtonəqliyyatdır. Stasionar və səyyar mənbələrdən atmosferə əsasən bərk toz hissəcikləri, karbon oksidləri, azot oksidləri, kükürd oksidi, karbohidrogenlər və digər uçucu kimyəvi maddələr atılır.

Müəssisələrin çoxunda filtrlər, təmizləyici qurğular ya yoxdur, ya da bərbad vəziyyətdədir. Artıq Bakıda nəfəs almaq olmur. Tikinti sahələrinin həddən artıq çoxalması və sıxlığı, avtomaşınların kütləvi köhnəliyi kimi hallar vəziyyəti daha da kəskinləşdirir.

## Torpağın deqradasiyası hansı səbəblərdən yaranır?

Azərbaycanın 8,6 milyon hektar ümumi torpaq fondunun yalnız 4,3 milyon hektarı, yəni, 50 faizi kənd təsərrüfatına yararlıdır. Yararsız torpaqlarda eroziya, şoranlaşma, bataqlıqlaşma, kimyəvi çirklənmə və s. proseslərin təsiri nəticəsində deqradasiya gedib.

Torpaqların bu faktorun təsirinə məruz qalmasının əsas səbəbləri respublikanın təbii iqlim şəraiti ilə yanaşı uzun müddət davam edən təsərrüfatsızlıq, əkinçilik mədəniyyətinin aşağı səviyyədə olması, sistemsiz olaraq mal-qaranın otarılması, meşə və yaşıllıqların məhv edilməsi və s. kimi antropogen amillərdir.

Respublikanın 1,3 mln. ha torpaq sahəsi şoranlaşmaya məruz qalıb və bunun tam yarısı suvarılan sahələrdir. Kolektor-drenaj xətlərinin bərbad vəziyyətdə olması, torpaqların relyefi, meliorativ xüsusiyyətləri, şoranlaşma dərəcəsi, qrunt sularının səviyyəsi və s. faktorlar nəzərə alınmadan sututarların tikilməsi, daşqınlar kimi amillər həmin torpaqların şoranlaşmasına və əkin dövriyyəsindən çıxmasına gətirib çıxarıb.

Dağ-mədən işləri, intensiv şəhərsalma və digər antropogen təsirlər nəticəsində 30 min hektardan artıq torpaq korlanıb sıradan çıxıb. Bunun təxminən 15 min hektarı neftlə çiklənib. Qalan yarısı isə, kimya sənayesi tullantıları, suvarma kanallarının çöküntüləri, faydalı qazıntı yataqlarının istismarı, tikinti və komunal müəssisələrinin və dağ-mədən tullantıları ilə çirklənib sıradan çıxıb.

## Tullantıların idarə olunması səviyyəsi qənaətbəxşdirmi?

Dünya miqyasında mövcud problemlərdən biri də ətraf mühitin davamlı üzvi çirkləndiricilər və ağır metallarla çirklənməsinin minimuma endirilməsidir ki, bu respublikamız üçün də olduqca aktual olub, həlli vacib problemlərdəndir. Bu növ çirklənmənin əsas mənbələri neft emalı, neftkimya, kimya, energetika, tikinti materialları istehsalı, avtonəqliyyat, kənd təsərrüfatında pestisidlərin tətbiqi və tullantıların yandırılması kimi proseslərdir ki, bu mənbələrdən ətraf mühitə dioksinlər, furanlar, bifenil və ağır metallar atılır.

Adı çəkilən birləşmələr təbii mühitə, o cümlədən insan sağlamlığına uzunmüddətli neqativ təsir göstərən havada uzun müddət asılı qalan, çətin parçalanan və tərkibində zəhərli birləşmələr olan təhlükəli maddələrdir.

Yeri gəlmişkən, Balaxanıda bərk məişət tullantılarının yandırılması və çeşidlənməsi zavodlarının fəaliyyətə başlamasından sonra tullantıların yığılmasında və emalında vəziyyət xeyli yaxşılaşıb, lakindigər tərəfdən tullantıların yandırılması havanı çirkləndirir.

Bu ildən etibarən plastik qablara və sellofan paketlərərə müəyyən məhdudiyyətlərin tətbiq olunmasını alqışlamaq olar. Təbiətə ən çox zərər verən bu ultrakimyəvi tullantılardır, hansı ki, 5-6 əsr torpaqda, suda qalır və çürümür. Yaxşı olardı ki, bu sahədə qadağalar daha da sərtləşsin, ənənəvi paket və qablardan istifadə təbliğ edilsin.

## Əhali tərəfindən meşə ehtiyatlarına təzyiq artıb

Son 25 ildə ölkəmizin meşə təsərrüfatı daha bir ağır problemlə üzləşib. İşğalçı Ermənistan tərəfindən ölkəmizə qarşı edilən təcavüz nəticəsində meşələrimizə sağalmaz yara vurulub. Ermənistanın təcavüzü nəticəsində 251 min ha meşə sahəsi (və ya meşə ilə örtülü sahənin 25%-i) 30 ilə yaxın müddətdə işğal altında qalıb, 11 min ha meşə sahəsi isə təsərrüfat dövriyyəsindən çıxıb. İşğal altında qalmış meşələrimiz vəhşicəsinə qırılıb talan edilib. Bu ərazilərdə bitən qiymətli ağac sortlarının kəsilib aparılması biomüxtəlifliyin pozulmasını kritik həddə çatdırıb.

Qeyd etmək lazımdır ki, son 30 il ərzində əhali tərəfindən meşə ehtiyatlarına təzyiqin arması müşahidə olunur. Bu da əsasən 90-ların əvvəlindən etibarən təbii qazla təminatın kəskin aşağı düşməsi ilə bağlı idi. Son vaxtlar qazlaşdırma səviyyəsinin artması bu prosesi səngidib.

Nəzarətin zəif olması meşələrin tikinti materialı kimi və ya mebel sənayesində istifadə olunması məqsədilə qırılmasına gətirib çıxarır. Respublikanın mərkəzində sipər rolunu oynayan Kürqırağı Tuqay meşələrinin 75-80 %-i məhv olub; dağ və dağətəyi meşələr sistemsiz qırılıb sıradan çıxır. Təbii bərpa edilmə imkanları ciddi surətdə məhdudlaşır (qanunsuz olaraq mal-qara otarılması, normadan artıq antropogen təsir) və nəticədə Azərbaycanın əvəzedilməz yaşıl örtüyünün itirilmə təhlükəsi güclənir.

## “Komleks proqram həyata keçirilməlidir, yoxsa...”

Qeyd etmək lazımdır ki, ölkədə ekoloji problemlərin həllində ictimaiyyət əsasən qeyri-hökumət təşkilatları vasitəsi ilə iştirak edir. Bəs belə təşkilatlar bu sahədə nə işlər görə bilir?

Ekoloq Jurnalistlər Birliyinin sədri Cəmşid Quliyevin fikrincə, dövlətin bu sahədə ciddi işlər görməsi vacibdir, lakin vətəndaşlar özləri də ekoloji problemlərə gətirib çıxaran əməlləri etməməlidir: “Meşələrdə heyvanların otarılmasına son qoyulmalıdır. Heyvanlar yeni pöhrələri yeyir və meşələrin cavanlaşması prosesi dayanır. Artıq bir çox ərazilərdə keçəlləşmə gedir. Üstəlik, mebel fabrikləri meşələri gizlicə qırırlar, bahalı ağacları kəsib mebel düzəldib satırlar”.

Ekoloq deyir ki, ekoloji mühiti sağlamlaşdırmaq üçün ciddi tədbirlər görülməlidir: “Ölkədə maşın parkının təzələşdirilməsi mütləqdir, dövlət bunun üçün stimullaşdırıcı tədbirlər görməlidir. Sənaye müəssisələrinə cidi nəzarət edilməlidir ki, filtrlərdən istifadə etsinlər. Yaşıllıqların qırılmasına görə cəzalar xeyli ağırlaşdırılmalı nə nəzarət artırılmalıdır. GMO əkinlərə və torpaqda zərərli dərmanlardan çox istifadəyə qadağa qoyulmalıdır. Su mənbələrinin çirkləndirilməsinin qarşısı alınmalıdır. Bunların heç biri təklikdə problemi həll etmək gücündə deyil. Ona görə də, komleks proqram həyata keçirilməlidir. Əks halda, tezliklə ciddi ekoloji böhranla üz-üzə qala bilərik”.

***Elçin Bayramlı***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

QARABAĞ AZƏRBAYCANDIR!

19 yanvar

## Robert Levandovski daha bir rekorda imza atıb

Almaniyanın "Bavariya" futbol klubunun polşalı hücumçusu Robert Levandovski daha bir rekorda imza atıb. Belə ki, polşalı forvardın rekordu Bundesliqanın 16-cı turunda "Frayburq"la keçirilən görüşdə qeydə alınıb. Otuz iki yaşlı futbolçu oyunda hesabı açmaqla bu mövsüm çempionatdakı qollarının sayını 21-ə çatdırıb. Bu, Bundesliqa tarixində rekord göstəricidir. İndiyədək heç kim mövsümün ilk yarısında 21 qol vurmayıb.



Xatırladaq ki, Levandovski FIFA və UEFA-nın ən yaxşı oyunçusu adını qazanıb, "Globe Soccer Awards" mükafatına layiq görülüb.

## "Barselona" ŞOKDA: Messini ağır cəza gözləyir!

"Barselona"nın kapitanı Lionel Messini ağır cəza gözləyir. Qol.az "Marca"ya istinadən xəbər verir ki, İspaniya superkubokunun finalında "Atletik"in oyunçusu Asyer Vilyalibreninin başına arxadan zərbə vuran 34 yaşlı hücumçu Əsasnaməyə görə 4-12 oyunluq cəzalandırıla bilər.

Qarşılaşmanın bitməsinə bir dəqiqə qalmış - 120+1-ci dəqiqədə Messi qırmızı vərəqə alaraq meydandan qovulub. Bu, argentinalı futbolçunun klub karyerasında ilk qırmızı vərəqəsidir. Qeyd edək ki, "Atletik" final matçının əlavə vaxtında "Barselona"ya 3:2 hesabı ilə qalib gəlib.



## Həbib Nurmaqomedov karyerasını bərpa edəcək

Mütləq Döyüş Çempionatının (UFC) yüngül çəkidə keçmiş çempion kəmər sahibi rusiyalı Həbib Nurmaqomedov yanvarın 23-də baş tutacaq amerikalı Dastin Puarye ilə irlandiyalı Konor Makqreqor arasındakı döyüşdən sonra karyerasını bərpa etmək ehtimalını etiraf edib.



Bu barədə ABC telekanalının efirində UFC prezidenti Dana Uayt açıqlama verib. Bildirilib ki, rusiyalı döyüşçü ilə Dana Uayt arasında Abu-Dabidəki "Döyüş ada"sında görüşdə H.Nurmaqomedovun karyerasını bərpa etmək imkanları müzakirə edilib. Rusiyalı döyüşçü UFC 257 çərçivəsində keçiriləcək turnirdə iki döyüşü (Dastin Puarye-Konor Makqreqor və Den Xukerr-Maykl Çendler) izlədikdən sonra fikrini bildirəcəyini qeyd edib.

2020-ci ilin oktyabrında H.Nurmaqomedov amerikalı Castin Puaryeni boğucu fəndlə məğlub etdikdən sonra karyerasını bitirdiyini bildirib. Rusiyalı döyüşçü çempionluq kəmərini 2018-ci ilin aprelində amerikalı El Yakuinta ilə dueldə qazanıb. Həmin il oktyabrın 7-də isə irlandiyalı Konor Makqreqoru məğlub edərək çempionluq kəmərini qoruyub.

## Formula 1: Şəhər yarışlarının baş tutmayacağı fərziyyəsi tamamilə səhvdir

Pandemiya və onun nəticələri Formula 1-ə təsir etməyə davam edir və mövsümün başlanğıcının təqviminə artıq düzəliş edilib. Bununla yanaşı, şəhər traslarında keçirilməsi nəzərdə tutulan Formula 1 yarışların baş tutmayacağı ilə bağlı fərziyyələr də meydana çıxıb. Söhbət Bakı, Monako, Monreal və Sinqapurdakı mərhələləri, eləcə də Ciddədə (Səudiyyə Ərəbistanı) ilk dəfə keçiriləcək yarışdan gedir. Lakin Formula 1 bu cür fərziyyələrin yanlış olduğunu bildirib. Bu barədə "RaceFans" nəşri məlumat yayıb. Məlumatda qeyd edilir ki, 2021-ci il üçün yenidən işlənmiş təqvimin təfərrüatları açıqlanıb və başqa heç bir dəyişiklik yoxdur. Şəhər yarışlarının baş tutmayacağı fərziyyəsi isə tamamilə səhvdir.



Qeyd edilib ki, ümumdünya miqyasında başlayan kütləvi peyvənd kampaniyası ilə bağlı ümidlər yaransa da, bununla belə hələ yanvar ayıdır və il ərzində vəziyyət yenə də dəyişə bilər.

## Havanın dəyişəcəyi ilə bağlı xəbərdarlıq

Milli Hidrometeorologiya Xidmətinin məlumatına görə Bakıda və Abşeron yarımadasında yanvarın 19-u axşamdan başlayaraq 21-i axşamadək hava şəraitinin dəyişəcəyi, arabir yağıntılı olacağı, bəzi yerlərdə yağışın sulu qara və qara keçəcəyi gözlənilir.

Departamentdən AZƏRTAC-a bildirilib ki, şimal-qərb küləyi 15-20 m/s, arabir 23-28 m/s-dək güclənəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 5-8 dərəcə aşağı enəcək. Yanvarın 20-si axşamdan 21-i gündüzədək çovğun olacağı, 21-22-də gecə saatlarında yolların buz bağlayacağı ehtimal olunur.



Yanvarın 18-i gündüzdən Azərbaycanın qərb rayonlarından başlayaraq 21-i gündüzədək hava şəraitinin arabir yağıntılı olacağı, bəzi yerlərdə qar yağacağı, ayrı-ayrı ərazilərdə intensiv və güclü olacağı gözlənilir. Qərb küləyi 15-20 m/s, bəzi yerlərdə arabir 25-30 m/s-dək güclənəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 5-10 dərəcə aşağı enəcək. Yanvarın 20-21-də çovğun olacağı, dağlıq və dağətəyi rayonlarda yolların buz bağlayacağı ehtimal olunur.

## Əvvəllər bağlı qalmış 21 cinayətin üstü açılıb

Respublikanın daxili işlər orqanları ötən iki gün ərzində törədilmiş 79 cinayətin üstünü "isti izlər"lə açıblar. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlki dövrlərdən bağlı qalmış 21 cinayətin açılması təmin olunub. Axtarışda olduğuna görə ümumilikdə 58 nəfər, o cümlədən borclu şəxs qismində axtarılan 41 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib. Respublikanın avtomobil yollarında baş vermiş üç yol-nəqliyyat hadisəsi nəticəsində beş nəfər ölüb, altı nəfər xəsarət alıb. Daxili işlər orqanları əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 58, qanunsuz saxlanılan silah-sursatla bağlı 5 fakt müəyyənləşdirilib. Cinayət törətməkdə şübhəli bilinən 82 nəfər saxlanılıb.

## Sabunçuda evdən silah-sursat tapıldı

Daxili işlər orqanlarının əməkdaşları əllərdə qanunsuz saxlanılan silah-sursatın aşkarlanaraq götürülməsi istiqamətində tədbirləri davam etdirirlər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Sabunçu Rayon Polis İdarəsi əməkdaşlarının əldə edilmiş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində Bakıxanov qəsəbə sakini, əvvəllər məhkum olunmuş A.Balakişiyevin evinin zirzəmisində nömrəsi silinmiş "AKMS" markalı silah, bir patron darağı və 4 patron aşkarlanıb. Nəqliyyatda Baş Polis İdarəsi əməkdaşlarının əldə edilmiş məlumat əsasında keçirdikləri digər əməliyyat-axtarış tədbiri nəticəsində isə Bülbülə dəmir yolu stansiyası ərazisində paytaxt sakini, əvvəllər məhkum olunmuş Ş.Sadıxovdan "Makarov" markalı tapança, bir patron darağı və üç patron aşkarlanaraq götürülüb.



**_Baş redaktor:_**

**Bəhruz Quliyev**

**_Baş redaktorun müavinləri:_**

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
**_Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur._**

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**